

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 44 (734) ■ 12 noyabr 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

*Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstana işgüzar səfərə gəlib. Budapeştin Ferents List Beynəlxalq hava limanında dövlətimizin başçısını Macarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.*



Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın geniş tərkibdə görüşü olub. Macarıstanın Baş naziri Azərbaycan Prezidentini parlament binasının önündə qarşılayıb. Macarıstan hökumətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Baş nazir Viktor Orbana təqdim olunub.

Geniş tərkibdə görüşdə çıxış edən Macarıstanın Baş naziri Viktor Orban Prezident İlham Əliyevin səfərinin əhəmiyyətini yüksək qiymətləndirib, ölkənin parlamentində və ümumiyyətlə, siyasi həyatında Azərbaycana böyük marağın olduğunu vurğulayıb. «Bizim hər birimiz ölkənizdə əldə olunan tərəqqini böyük heyranlıqla izləyirik», - deyən Baş nazir Azərbaycanın iqtisadi tərəqqisinin, o cümlədən qeyri-neft sektorunun uğurlu inkişafının Macarıstanda maraqla izlənildiyini diqqətə çatdırıb. Macarıstanın Baş naziri onunla Prezident İlham Əliyev arasında dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığımızın inkişafında rolunu vurğulayıb, əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı potensialın olduğunu qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir və əlaqələrimiz qarşılıqlı etimada söykənir. Ölkələrimiz arasında güclü siyasi əlaqələrin olduğunu deyən dövlətimizin başçısı iqtisadi sahədə də münasibətlərin uğurla inkişaf etdiyini, ticarət dövriyyəsinin artdığını və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin mövcudluğunu vurğulayıb. İmzalanacaq sənədlərin əhəmiyyətindən danışan Prezident İlham Əliyev onların ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı hüquqi baza yaratdığını bildirib.

Söhbət zamanı əlaqələrimizin yeni imkanlarının nəzərdən keçirilməsinin önəmi vurğulanıb, birgə hökumətlərarası komissiyanın fəaliyyətinin bu baxımdan əhəmiyyəti qeyd edilib. Azərbaycan ilə Macarıstan arasında enerji, təhsil, humanitar, əczaçılıq, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivlərinin müəyyən edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, həmçinin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq, regional və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Müstəqillik və dövlətçilik tariximizdə yeni səhifə

*Azərbaycan xalqı müstəqillik tariximizin ən əlamətdar bayramlarından biri olan Konstitusiya Gününü hər il təntənə ilə qeyd edir. 1995-ci il noyabrın 12-də referendum yolu ilə ölkənin Əsas Qanunu - milli Konstitusiyamız qəbul edilmişdir. Qanun həmin il noyabrın 27-dən qüvvəyə minmişdir.*

Yeni Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə respublikanın dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul olunmuşdur. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilmişdir. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti meydana çıxmışdır. Bunun üçün ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradılmış, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə çıxarılmışdır. Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən ilk Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir.

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiyamız ümumbəşəri ideyalara, ən qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla yanaşı, özündə tarixi ənənələrimizi, Azərbaycan xalqının milli mənəvi dəyərlərini əks etdirən dinamik, ölkəmizin inkişaf strategiyasını müəyyən edən əsas sənəddir.

Milli Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisəsi olmaqla yanaşı, ümummilli liderimizin Azərbaycan dövlətçiliyi qarşısında əvəzsiz xidmətlərindən biridir. Ulu öndər Konstitusiya layihəsini hazırlayan xüsusi komissiyaya bilavasitə sədrlik etmiş, Əsas Qanunumuzun müasir dəyərləri özündə ehtiva edən ən yetkin formada qəbul olunması üçün gərgin əmək sərf etmişdir.

Konstitusiyamızda müstəqil Azərbaycanın inkişafının əsas prinsipləri, demokratik dövlət quruculuğu prosesinin başlıca istiqamətləri, vətəndaşların fundamental hüquq və vəzifələri müəyyən edilmişdir. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə bir çox sahələrdə, xüsusən də hüquqi dövlət quruculuğu və insan haqlarının təmini istiqamətində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Hakimiyyət bölgüsü prinsipinin daha ardıcıl həyata keçirilməsi üçün məhkəmə-hüquq islahatları aparılmış, vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ölkə daxilində yeni mexanizmlər yaradılmışdır.

Dövlətin Əsas Qanununun qəbulundan ötən 19 il Azərbaycanın yeni tarixində xüsusi yer tutur. Həmin müddətdə ölkə dünyəvi, sivil, demokratik və hüquqi dövlət quruculuğu sahəsində, iqtisadiyyatın və sosial-siyasi həyatın inkişafında taleyüklü dəyişikliklərə nail olmuşdur. Konstitusiyanın qəbulu müasir, dünyəvi və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən dövlət sisteminin formalaşmasında və möhkəm hüquqi bazanın yaradılması sahəsində mühüm addım olmuşdur. Əsas Qanun dövlətimizin, onun ərazi bütövlüyünün və cəmiyyətin hüquqi baxımdan legitimləşdirilməsini təmin etmişdir. Konstitusiyada təsbit olunmuş hüquqi baza isə Azərbaycanın siyasi, sosial və iqtisadi inkişafının sabitliyinə və dinamikliyinə imkan yaratmışdır.

Vətəndaş, cəmiyyət və dövlət arasında mühüm ictimai münasibətləri tənzimləyən, demokratik, hüquqi dövlət və ictimai quruluşun əsaslarını, siyasi sistemin təşkili prinsiplərini, bütövlükdə dövlətin fəaliyyət konsepsiyasını və gələcək prioritetlərini müəyyənləşdirən konstitusiyalar bütün dövlətlərin əsas qanunu kimi çıxış edir. Konstitusiyanın ən yüksək və ali hüquqi qüvvəyə malik olan normaları bütün hüquqi tənzimləmə sisteminin əsasında durur. Konstitusiya, həmçinin ölkədə təşəkkül tapmış dövlətçilik ənənələrinin, hüquq qaydasının, demokratik nailiyyətlərin qorunmasına xidmət edir. Təsadüfi deyildir ki, siyasi, hüquqi, iqtisadi, sosial, mənəvi və s. sahələrdə insan fəaliyyətinin əsas prinsiplərini müəyyənləşdirən konstitusiyalar bu və ya digər dövlətin hüquq sistemində ən ali yer tutur. Müasir demokratik dövlətlərin qanunvericilik sistemlərinin əsası olan konstitusiyaları bütün digər hüquqi aktlardan fərqləndirən səciyyəvi xüsusiyyətlər mövcuddur. Bunların sırasında konstitusiyaların xalq tərəfindən qəbul edilməsi, təsisedici mahiyyət daşıması, cəmiyyət həyatının bütün sahələrini əhatə etməsi, aliliyi və ən yüksək hüquqi qüvvəsi, qəbul olunması və onlara əlavə və dəyişikliklərin edilməsinin xüsusi qaydasının nəzərdə tutulması kimi xüsusiyyətləri sadalamaq mümkündür. Konstitusiya təsisedici mahiyyət daşıyır və konstitusiya tənzimləməsi ictimai münasibətlərin bütün sahələrini əhatə edir. Konstitusiyanın təsisedici mahiyyəti həm də onun dövlət, cəmiyyət və şəxsiyyət arasındakı münasibətlərin əsasını təşkil etməsində, dövlətin və cəmiyyətin inkişafının strateji məqsəd və vəzifələrini müəyyən etməsində özünü göstərir. Konstitusiya dövlət hakimiyyəti orqanlarının və konstitusiya hüququnun digər vacib subyektlərinin hüquq və vəzifələrini əks etdirir və bununla da, onların Əsas Qanunun ümumi konsepsiyasına müvafiq fəaliyyətini istiqamətləndirmiş olur. Konstitusiyanın hazırlanması prosesinə çoxsaylı siyasi, iqtisadi, sosial, tarixi, beynəlxalq-hüquqi amillər, xalqın tarix boyu formalaşmış dövlətçilik ənənələri təsir göstərir. Qeyd edildiyi kimi, Konstitusiya bütün digər normativ hüquqi aktlardan fərqli olaraq, hərtərəfli xarakter daşıyır və cəmiyyət həyatının bütün sahələrini - siyasi, iqtisadi, sosial, mənəvi və digər sahələrini əhatə edərək, həmin sahələrdə ictimai münasibətlərin mühüm, fundamental əsaslarını tənzimləyir. Konstitusiya bütün digər qanunlardan daha çox cəmiyyətə, xalqa, sosial qruplara, ümumilikdə vətəndaşa ünvanlanır. Yeni konstitusiyaların qəbul edilməsi bir çox halda bu və ya digər cəmiyyətin həyatında baş verən əhəmiyyətli, köklü dəyişikliklərlə birbaşa əlaqədar olur. Bu baxımdan, dövlət müstəqilliyinin bərpa edilməsindən sonra ölkəmiz qarşısında duran həyati əhəmiyyətli vəzifələrdən biri də Azərbaycanın gələcək inkişafının müasir dövrün tələblərinə uyğun əsas istiqamətlərinin müəyyən olunması, hüquqi dövlətin ümumqəbul olunmuş prinsiplərinin reallaşdırılması üçün zəruri olan tədbirlərin həyata keçirilməsi idi. Bu isə öz növbəsində, ölkənin gələcək inkişafının konseptual əsaslarını və təməl prinsiplərini əks etdirən Konstitusiyanın hazırlanmasını və qəbulunu zəruri edirdi. Lakin ölkəmizdə siyasi sabitliyin və xalqın mənafelərini əks etdirən siyasi iradənin olmaması qarşıda duran vəzifələrin reallaşdırılmasını qeyri-mümkün etmişdi. Məhz müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra dövlət və cəmiyyət həyatının bütün sahələrində genişmiqyaslı islahatların başlanılmasına, o cümlədən Əsas Qanunun qəbuluna imkan verən zəruri ictimai-siyasi mühit formalaşdırıldı.




Konstitusiyanın qəbul edilməsi sadəcə yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, həm də ölkəmizin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi. Bu mərhələ siyasi sistemin mərkəzində insanın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir. İnsanın, onun hüquqlarının və azadlıqlarının ali dəyər kimi qəbul olunması ölkə Konstitusiyasının əsas qayəsini təşkil edir. Konstitusiyanın preambulasında Azərbaycan xalqının özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq və suveren hüququndan istifadə edərək bəyan etdiyi ülvi niyyətləri sadalanır. Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək xalqımızın niyyətləri sırasında bəyan edilmişdir. Konstitusiya Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik akt olmaqla, ölkənin qanunvericilik sisteminin əsasını təşkil edir.

Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan bu gün regionda lider dövlətə çevrilmiş, dünyada layiqli yerini tutmuşdur. Dövlətimiz beynəlxalq aləmdə böyük nüfuz sahibidir. Azərbaycanın BMT, Avropa Şurası və digər bir cox beynəlxalq və regional təşkilatlara üzv seçilməsi dünya dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların ölkəmizə xüsusi diqqətinin bariz nümunəsidir.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gərgin əməyi və düşünülmüş siyasəti nəticəsində dövlətimiz bundan sonra da sürətlə inkişaf edəcək və dünyada mövqelərini daha da möhkəmləndirəcəkdir.

2 | Qanun pozuntularına qarşı operativ tədbirlər görülür
3 | İnvestisiyalar sürətli iqtisadi inkişafın əsasını təşkil edir
4 | Vergi ödəyicilərinin işi asanlaşdırılır
5 | Azərbaycanın mövqeyi yüksəlir

# «Vergi ödəyicilərinə xidmət» mövzusunda regional seminar

*Noyabr ayının 6-da Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) «Vergi ödəyicilərinə xidmət» mövzusunda regional seminarı öz işinə başlamışdır.*

Tədbirdə qeyd edilmişdir ki, Azərbaycan əksər Avropa Birliyi ölkələri, Cənubi-Şərqi Asiya, Yaxın Şərq ölkələri, Kanada, Yaponiya və MDB üzvü olan dövlətlər də daxil olmaqla 48 ölkə ilə, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan 10 dövlətdən 6-sı ilə gəlirlərə və əmlaka münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalamışdır.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi ECO-ya üzv olan dövlətlərin vergi administrasiyaları ilə həm ikitərəfli formatda, həm də Avropadaxili Vergi Administrasiyaları Təşkilatı, MDB dövlətlərinin Vergi orqanları rəhbərlərinin əlaqələndirmə Şurası, İslam konfransı dövlətlərinin vergi administrasiyalarının Assosiasiyası çərçivəsində sıx əməkdaşlıq edir.



Seminarda Türkiyə, Əfqanıstan, Pakistan, Tacikistan, Qırğızıstan, Türkmənistan və Azərbaycanın vergi orqanlarının nümayəndələrinin «Vergi ödəyicilərinə göstərilən xidmətlər», «Vergi ödəyicilərinə göstərilən xidmətlərin təşkilində informasiya mənbələri. Vergi ödəyicilərinə göstərilən elektron xidmətlər», «Vergi ödəyicilərinə xidmət: çağrı və xidmət mərkəzləri», «Vergi mədəniyyətinin yüksəldilməsində maarifləndirmə və məlumatlandırmanın rolu» mövzularında təqdimatları dinlənilmişdir.

Noyabrın 7-də tədbir iştirakçıları Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamenti, sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində «bir pəncərə» sistemi, Çağrı Mərkəzi, habelə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN xidmət» Mərkəzi ilə tanış olmuşlar.

# Vergi ödəyiciləri Çağrı Mərkəzinin xidmətlərindən məmnundur

2014-cü ilin oktyabr ayında Vergilər Nazirliyinin Çağrı Mərkəzinə 20537 və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 36,2% çox zəng daxil olmuşdur.

Canlı əlaqə zamanı 19596 sual xarakterli müraciət cavablandırılmışdır ki, onların da 13,1%-i qeydiyyat, 11,6%-i elektron xidmətlər, 9,1%-i elektron imza, 7,8%-i hesabatlar, 7,3%-i əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi, 4,7%-i büdcə hesablaşmaları, 4,1%-i vergi ödəyicilərinə göndərilmiş mesajlar barədə olmuşdur.

Ay üzrə vergi ödəyiciləri tərəfindən səsli menyu vasitəsilə məlumat almaq üçün 4628 zəng daxil olmuşdur. 758 dəfə vergi növləri barədə məlumatın verilməsi, 2076 sayda isə vergi borcu barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə olunmuşdur.

Həmin dövrdə vergi ödəyicilərini məlumatlandırmaq məqsədilə 201261 mesaj göndərilmişdir ki, onlardan 200224-ü qısa mesaj (SMS) xidməti, 1037-si ikitərəfli SMS xidməti vasitəsilə həyata keçirilmişdir. Vergi ödəyicilərinin Çağrı Mərkəzinin xidmətindən razıqalma səviyyəsi 96,97% olmuşdur.

# Qanun pozuntularına qarşı operativ tədbirlər görülür

2014-cü ilin oktyabr ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 3185 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır.

829 vergi ödəyicisinin qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul etdiyi, valyutanı ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz alıb-satdığı və ya dəyişdirdiyi, 348 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir. 142 vergi ödəyicisi tərəfindən 223 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 280 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 46 vergi ödəyicisində 1368 ədəd aksiz markaları ilə müvafiq qaydada markalanmamış mal olduğu müəyyən edilmişdir.

Aşkar olunmuş nöqsanlarla bağlı müvafiq tədbirlər həyata köçürülmüşdür.

# Mütəxəssislərin inkişafına xüsusi əhəmiyyət verilir

Vergilər Nazirliyinin 2003-cü ildən fəaliyyət göstərən «195» Çağrı Mərkəzi əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, daxil olan müraciətlərdə qoyulan suallara cavabların vahid və çevik formada verilməsi üçün sual-cavab bazasının yaradılması, mürəkkəb sualların qeydiyyatının aparılması və onların həlli barədə müraciət edən şəxslərə cavabların əks əlaqə formasında çatdırılmasının təmin edilməsi, ümumilikdə işçilərə telefon-danışıq mədəniyyətini aşılamaq məqsədilə xüsusi təlimlər təşkil edilir.

Hər gün minlərlə insana xidmət göstərərək, zəng, sms və ya səsli mesajların köməyi ilə vergi ödəyicilərini narahat edən sualları cavablandıran «çağrıçı»larla birlikdə həmin təlimlərdən birində iştirak etmək üçün yolumuzu Mirəli Qaşqay küçəsi, 56 ünvanından saldıq.

Treninqlər Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Digital Services» MMC-nin iştirakı və dəstəyi ilə keçirilir. Mərkəzin rəhbəri Nurlan Bayramlı bildirir ki, sahibkarların, ümumilikdə isə əhalinin vaxt itkisinə yol vermədən bir mənbədən biznesin qeydiyyatı, lisenziyalaşdırma, vergilər, rüsumlar və sahibkarları maraqlandıran digər məsələlər barədə məlumat almasını təmin etmək məqsədilə Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi və ayrı-ayrı dövlət orqanlarındakı analoji xidmətlər vahid telefon-məlumat xidmətinə inteqrasiya olunmaqdadır. Nazirlər Kabinetinin 28 oktyabr 2013-cü il tarixli sərəncamı ilə Maliyyə, Vergilər, Ədliyyə, İqtisadiyyat və Sənaye, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət sahələrini əhatə edəcək «Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi»nin yaradılması nəzərdə tutulmuşdur. Sərəncamda Vergilər Nazirliyi ilə İqtisadiyyat və Sənaye Nazirliyinə digər qurumlara «195» Çağrı Mərkəzinin təcrübəsi əsasında metodiki kömək göstərilməsi tapşırılmışdır.

Bu tapşırığın icrası istiqamətində həm sıravi əməkdaşların, həm də idarəedici heyətin iki istiqamətdə - qanunvericilik və Çağrı Mərkəzinə dair xüsusi təlim keçməsi nəzərdə tutulmuşdur. Qanunvericilik sahəsindəki təlimlər hər bir dövlət qurumunun özü tərəfindən həyata keçirilir, Cağrı Mərkəzinə dair təlimlərin isə Vergilər Nazirliyinin təşkilatçılığı ilə icraçı şirkət tərəfindən təşkil olunması planlaşdırılmışdır.

Bununla əlaqədar olaraq, həm yerli, həm də xarici ölkələrdən dəvət olunmuş təlimçilərin iştirakı ilə effektiv idarəetmə, liderlik keyfiyyətlərinin tərbiyə olunması, telefon-danışıq mədəniyyəti, stressin idarə olunması və s. kimi mövzularda treninqlər keçirilir.

Menecer-partnyor Səbinə Zamanovanın sözlərinə görə, bu treninqlərdə həm işin texniki tərəflərinə, həm də təlimçi hazırlığına önəm verilir: «Təlim iki yöndə - rəhbərlərin hazırlanması və bütünlükdə Çağrı Mərkəzi əməkdaşlarının fəaliyyət səviyyəsinin artırılması istiqamətində aparılır. Çağrı Mərkəzi spesifik biliklər tələb edən sahədir. Əhalinin müraciətləri işçilər tərəfindən sərbəst cavablandırılmalı, məsələnin düzgün həlli tapılmalıdır. Bacarıqlar, rəhbərlik, motivasiya, lider hazırlığı, menecment, idarəolunma ilə bağlı treninqlər artıq baş tutub. Rəhbərlər üçün təşkil olunan xüsusi təlim statistika ilə düzgün işləmək baxımından analitik biliklər qazanmaq, bunu inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim həm də səhvlərin və kənarlaşmaların vaxtında aşkarlanıb aradan qaldırılması üçün vacibdir».

Stressin idarə olunmasına həsr edilmiş təlim Çağrı Mərkəzinin işçilərini bir araya toplamışdı. Gərgin iş rejimindən bir qədər uzaqlaşaraq dəyirmi stol arxasında yığılan əməkdaşlar söhbət əsnasında təlimin nəticəsi kimi iş zamanı yaranan stressin qarşısını ala bilmək, çətin müsahiblərlə dil tapmaq və emosiyaları nəzarətdə saxlayıb sakitliyi qorumaq yollarını müzakirə edirdilər.

Lalə Əbdülrəhmanova (təlimin aparıcısı) hərtərəfli hazırlıqlı əməkdaşlar yetişdirmək üçün mütəxəssis hazırlığında müəyyən bacarıq, istedad tələb olunduğunu bildirdi: «İşçidə həvəs, hövsələ, yardım etmək istəyi olmalıdır. Çünki işin özü xüsusi enerji tələb edən prosesdir. Bu qurumda rəhbərlik, əsasən, gənclərdən ibarətdir. İntuitiv olaraq öz sahələrini gözəl bilsələr də onların idarəetmə dövrəsinin mərhələlərini, işçilərlə ünsiyyəti, hədəflərə çatmaq üçün hansı yollardan keçmək lazım gəldiyi barədə məlumatları olmaya bilər. Ona görə də treninqdə iştirak edən təlimçilər telefonla danışıq mədəniyyətinin əsasları, zamanın düzgün idarə edilməsi ilə bağlı məsələlərlə yanaşı, liderlik bacarıqları və liderin rolu, rəhbərlik və idarəetmə bacarıqları, layihələrin və müasir Çağrı Mərkəzinin operasional idarə olunması ilə bağlı məsələlər fonunda əməkdaşlara yardım etməyə çalışırlar».

Eldar Mədətov (təlimin iştirakçısı, baş dövlət vergi müfəttişi): «Stressin idarə olunması, insanlarla ünsiyyət, onları qane etmək bacarığı bizdən böyük enerji tələb edir. Bu sahədə bilmədiklərimizi öyrənmək istəyirik».



Əli Hacıyev (təlimin iştirakçısı, dövlət vergi müfəttişi): «Bu təlimdə iştirak etmək maraqlıdır. Kollektiv testlər vasitəsilə psixoloji biliklərə yiyələnir, çətinliyə düşəndə stressi necə dəf etmək yollarını öyrənir, işimizdəki yeknəsəklikdən qurtuluruq».

Raqil Əzizov (təlimin iştirakçısı, böyük hüquqşünas): «Ötən dəfə iştirak etdiyim təlim zamanın idarə edilməsinə həsr olunmuşdu. Təlimdə rəhbər vəzifəsi olmayan işçilər iştirak edirdilər. Vaxtdan səmərəli istifadə ilə bağlı əldə etdiyimiz dolğun informasiyaları işimizə tətbiq etməyə çalışacağıq. Nəzəri olaraq hər şey əla görünür, bu biliklərin praktikada tətbiqi isə fərqli əhval yaradır».

Söhbətləşdiyimiz digər iştirakçılar da təlimdən xeyli faydalı bilgilər əldə etdiklərini bildirdilər.

**Fəxriyyə İKRAMQIZI**

# 2015-ci ildə yaşayış minimumu və ehtiyac meyarının həddi artırılacaq

***Bununla bağlı «2015-ci il üçün yaşayış minimumu haqqında» və «2015-ci il üçün ehtiyac meyarının həddi haqqında» qanun layihələri parlamentə təqdim olunub***

Milli Məclisin sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli bildirib ki, gələn ilin dövlət büdcəsinin zərfində yaşayış minimumunun və ehtiyac meyarının məbləği müəyyənləşdirilib. 2015-ci ildə yaşayış minimumu ölkə üzrə 131 manat, əmək qabiliyyətli əhali üçün 140 manat, pensiyaçılar üçün 108 manat, uşaqlar üçün 108 manat olacaq. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə ehtiyac meyarının həddi isə 105 manat məbləğində nəzərdə tutulub.

H.Rəcəblinin sözlərinə görə, həyata keçirilən sosial siyasətin təntənəsi kimi son 10 ildə minimum əməkhaqları, ehtiyac meyarı və yaşayış minimumunun məbləğinin artırılması nəzərə çarpır. Bu indeks üzrə orta hədd 2004-cü ildə 25, 2005-ci ildə 52, 2006-cı ildə 58, 2007-ci ildə 64, 2008-ci ildə 70 manat, 2009-cu ildə 84, 2010-cu ildə 87, 2011-ci ildə 102, 2012-ci ildə 108, 2013-cü ildə 116, 2014-cü ildə isə 125 manat təşkil edib. Beləliklə, son 10 ildə yaşayış minimumunun həddi gələn il 5,5 dəfə artmış olacaq.

Son 10 ildə respublikamızda ehtiyac meyarının həddinin də davamlı olaraq artımı baş verib. Orta məbləğ 2004-cü ildə 5 manat, 2005-ci ildə 20 manat, 2006-cı ildə 30 manat, 2007-ci ildə 40 manat, 2008-ci ildə 55 manat, 2009-cu ildə 60 manat, 2010-cu ildə 65 manat, 2011-ci ildə 75 manat təşkil edib. 2012-ci ildə bu rəqəm 84 manata, 2013-cü ildə 93 manata, 2014-cü ildə 100 manata çatıb. Ehtiyac meyarının həddi 10 ildə 21 dəfə artıb.

Mütəxəssisin fikrincə, qeyd olunan sosial indekslərlə bərabər, minimum əməkhaqqının məbləğində də əhəmiyyətli dərəcədə artım baş verib. 10 ildə minimum əməkhaqqı 5,5 manatdan 105 manatadək artırılıb. Son 8 ildə pensiyaların orta aylıq məbləği 5,7 dəfə yüksəlib və bu göstərici üzrə sosial indekslərin həddinə görə Azərbaycan MDB-də Rusiya və Qazaxıstandan sonra 3-cü yeri tutur.

Hazırda respublikamızda həyata keçirilən sosial siyasətin əsas prioritetlərindən biri də bu sahədə inkişaf indekslərini Avropa Sosial Xartiyasının tələblərinə uyğunlaşdırmaqdır. Əsas sosial hədəflər ölkə üzrə ehtiyac meyarını yaşayış minimumuna çatdırmaqdır. Bu meyarlar dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası»nda da öz əksini tapıb. Sənəddə qarşıdakı illərdə sosial müdafiə tədbirlərinin əhatəsinin gücləndirilməsi, aztəminatlı ailələrin maddi imkanlarının yaxşılaşmasına yönəlik sosial layihələrin davam etdirilməsi, sosial sistemin təkmilləşdirilməsi məqsədi ilə islahatların həyata keçirilməsi, sosial təminat və pensiya sisteminin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması ilə bağlı prioritetlər müəyyənləşib.

**Elbrus CƏFƏRLİ**






# İnvestisiyalar sürətli iqtisadi inkişafın əsasını təşkil edir



*Azərbaycanın son illərdə yaradılmış əlverişli biznes mühiti ölkədə işgüzar fəallığın artmasına, yerli və xarici kapitallı müxtəlif müəssisələrin yaradılmasına, ölkəmizə investisiya qoyuluşunun çoxalmasına şərait yaradıb. Bu uğurların əldə edilməsində dövlət dəstəyi mexanizmlərinin də böyük rolu var. 2003-cü ildə ölkənin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi məqsədilə yaradılmış Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) bunlardan biridir. Müsahibimiz fondun prezidenti Rüfət Məmmədovdur.*

***- Rüfət müəllim, xarici investorlar üçün Azərbaycanın hansı üstünlükləri mövcuddur?***

- Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycanın xarici iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Son 20 il ərzində cəlb olunmuş investisiyaların ümumi həcmi 190 mlrd. ABŞ dollarından çoxdur və bunun təxminən yarısını müxtəlif sahələrin inkişafına yönəldilmiş xarici investisiyalar təşkil edir. Xarici investorların Azərbaycanda fəallığını ölkədə cəlbedici investisiya mühitinin mövcudluğu ilə əsaslandırmaq olar. İqtisadiyyatımızın müqayisəli üstünlükləri xarici investorların nəzərindən qaçmır.

İlk növbədə ölkə iqtisadiyyatının sabitliyini qeyd etmək lazımdır. Bu göstərici üzrə ölkəmiz dünya miqyasında seçilir. Dünya İqtisadi Forumunun «Qlobal Rəqabətlilik Hesabatı»na əsasən, makroiqtisadi mühitin sabitliyi üzrə Azərbaycan dünyada 9-cu yerdədir. İqtisadiyyatın qlobal rəqabət qabiliyyəti üzrə Azərbaycan 144 ölkə arasında 38-ci, MDB məkanında isə artıq 6-cı ildir ki, 1-ci yeri tutur.

Bununla yanaşı, ölkədə sürətli iqtisadi inkişaf, iqtisadiyyatda qeyri-neft sektorunun rolunun davamlı genişlənməsi və istehlakın artması xarici investorlar üçün yeni imkanlar açır. Son 10 ildə iqtisadiyyatımız 3 dəfədən çox artıb. Ayrı-ayrı sahələr üzrə də inkişaf templəri yüksəkdir: rabitə - 8,2 dəfə, turizm - 10,6 dəfə, xarici ticarət - 6,6 dəfə, sənaye - 2,7 dəfə, tikinti - 4,7 dəfə. İqtisadiyyatda qeyri-neft sektorunun payı 60%-ə yaxınlaşır. Hər sahədə yeni layihələrə start verilir, iş adamları üçün geniş imkanlar yaradılır.

Xarici investorlar üçün əsas üstünlüklərdən biri də Azərbaycanda yüksək ixtisaslı kadr potensialının olmasıdır. Ölkəmizdə «qara qızıl»ın «insan kapitalı»na çevrilməsi siyasəti çərçivəsində formalaşmış yüksək ixtisaslı kadrlar bazası xarici investisiyalı layihələrin uğurla reallaşdırılmasını şərtləndirir və xaricdən mütəxəssislərin cəlb olunması investorların xərclərinin kəskin azalmasına səbəb olur.

Əlverişli biznes mühiti üzrə Azərbaycan dünyada liderlər sırasındadır. Ölkəmizdə dövlət orqanları tərəfindən elektron xidmətlərin göstərilməsi geniş vüsət almışdır. Sahibkarlıq sahəsində icazələr sisteminin təkmilləşdirilməsi, vergi mexanizmlərinin avtomatlaşdırılması, vergitutma proseslərinin sadələşdirilməsi, əmlakın qeydiyyatı, yoxlamaların tənzimlənməsi sahələrində görülmüş işlər və əldə olunmuş nailiyyətlər bunu deməyə əsas verir. Bunlardan əlavə, Azərbaycana xarici investisiyaların qoyuluşunu şərtləndirən əsas amillər sırasında əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, güclü özəl sektor və s. də qeyd etmək olar.

***- Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr hansılardır?***

- Son illər ərzində investorların Azərbaycandakı fəaliyyəti və ümumilikdə ölkədə xarici investisiyaların yatırılması tendensiyaları investorların bir çox sahələrə maraq göstərdiklərini deməyə əsas verir.

Bildiyiniz kimi, Azərbaycan dünyada neft və qaz ehtiyatlarına görə tanınan ölkələr sırasındadır. Müstəqilliyimizin ilk dövrlərində enerji sənayesinin inkişaf etdirilməsi və bu məqsədlə xarici investisiyaların neft-qaz sektoruna cəlb edilməsi Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün təməl rolunu oynayıb.

Qeyri-neft sektorunda torpaq vergisindən başqa bütün vergilərdən azad olunmuş kənd təsərrüfatı sektoru əlverişli təbii şəraitin fonunda biznesin qurulması üçün ən maraqlı sahələrdən biri kimi qiymətləndirilir. Zəngin xammal bazasına malik qida sənayesi sektorunun inkişaf etdirilməsi üçün istehsalda istifadə olunmaq məqsədilə idxal edilən bir sıra mal və avadanlıqlara Azərbaycanda gömrük rüsumları tətbiq olunmur. Bu da xarici şirkətlər üçün əlavə stimullaşdırıcı faktor kimi qəbul edilir. Gəlirlərin artım tempinə görə sürətlə inkişaf edən informasiya texnologiyaları sahəsini də xüsusi vurğulamaq istərdim. Bu sektor ölkəmizin qeyri-neft iqtisadiyyatında yüksək inkişaf templərinə malik və investisiya qoyuluşu üçün prioritet sahələrdəndir. Hazırda respublikamızda yüksək imkanlara malik İKT ilə təchiz olunan infrastrukturun formalaşması prosesi gedir. Bu sahədə ən böyük nailiyyətlərimizdən biri kimi 2013-cü ildə Azərbaycanın «Azerspace-1» peykinin orbitə çıxarılmasını misal göstərmək olar. Bundan əlavə, ölkədə informasiya texnologiyalarının inkişafını təmin etmək məqsədi ilə yüksək texnologiyalar parkı yaradılmışdır. Bütün bunların fonunda ölkəmiz İKT sahəsində dünyanın nüfuzlu şirkətləri üçün regionda ən maraqlı məkanlardan birinə çevrilmişdir.

Azərbaycanda xarici investorlar üçün cəlbedici sektorlardan biri də turizmdir. Böyük perspektivə malik turizmin inkişafı üçün ardıcıl və məqsədyönlü işlər görülməkdədir və mövcud turizm imkanları bu sahəyə investisiya qoyuluşunu stimullaşdırır. Ölkəmizdə turizmin əksər növlərinin (kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini və s.) inkişafı üçün geniş imkanlar var. Bütün regionlarda turizm infrastrukturu müasirləşdirilir, müxtəlif layihələr reallaşdırılır. Xarici ölkələrdə Azərbaycanın turizm potensialı təbliğ olunur ki, bu da əcnəbi iş adamlarının bu sahəyə diqqətini cəlb edir. Ötən 10 il ərzində otellərin və otel tipli müəssisələrin sayı dəfələrlə artmışdır. Paytaxt Bakıda və regionlarda dünyada məşhur brendlərin beşulduzlu otelləri açılmışdır. Azərbaycan belə otellərin sayına görə regionda lider ölkədir.

Bunlardan əlavə, ölkənin emal sənayesi də cəlbedici sahələrdəndir. Son on ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi 2,7 dəfə artmışdır. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bunun nəticəsi olaraq, iqtisadiyyatın sənayeləşməsini sürətləndirmək, mövcud potensialdan daha səmərəli istifadə etmək məqsədi ilə 2014-cü il Azərbaycan Respublikasında «Sənaye ili» elan olunmuşdur.

Sənaye sahəsində görülmüş işlərdən biri də Azərbaycanda investorlara güzəştli şərtlərin tətbiq edildiyi sənaye parklarının yaradılmasıdır. Kimya sənayesinin inkişafı üçün hərəkətverici amil kimi qiymətləndirilən Sumqayıt Kimya Sənaye Parkının və tullantıların təkrar emalı sahəsində xüsusi əhəmiyyət kəsb edən Balaxanı Sənaye Parkının təşkili uğurla həyata keçirilən sənayeləşmə siyasətinin göstəricilərindəndir. Qeyd olunan parklarda fəaliyyət göstərən rezidentlər üçün 7 il müddətinə tətbiq olunan vergi və gömrük güzəştləri xarici investisiyalar üçün Azərbaycanda yeni imkanlar açır. Parklarla bağlı aparılan təşviqat işlərinin nəticəsi olaraq, kimya və tullantıların emalı sənayesində ixtisaslaşmış potensial xarici investorlar artıq ölkəmizə müraciət etməyə başlamışlar.

***- Tam xarici investisiyalı və birgə müəssisələrin yaradılmasında hansı ölkələr daha fəal iştirak edirlər?***

- Azərbaycana xarici investisiyaların yatırılması dünyada birbaşa xarici investisiyaların axınının tendensiyalarını əks etdirir. Ölkəmizə ən çox investisiya qoyan xarici şirkətlərin əksəriyyəti dünyanın 20 ən böyük ölkəsindən gəlir. Onların arasında Böyük Britaniya, ABŞ, Yaponiya, Rusiya Federasiyası, Almaniya və digər ölkələr var. Türkiyə şirkətləri Azərbaycan bazarında daha fəaldırlar.

Qeyri-neft sektoruna birbaşa xarici sərmayələr üzrə ən böyük investorlar 26%-lik payla Türkiyə, 16%-lik payla Böyük Britaniya və 12%-lik payla ABŞ-dır. Azərbaycanda əsas kapitala xarici investisiya qismində isə Böyük Bitaniyadan 18 milyard, ABŞ-dan 7 milyard, Yaponiyadan 4 milyard dollar vəsait yatırılmışdır.

Onu da qeyd edim ki, hazırda ölkədə 6857 xarici investisiyalı müəssisə fəaliyyət göstərir. Bu şirkətlərin 36%-i Türkiyə, 8,3%-i Rusiya, 7,8%-i Böyük Britaniya mənşəli investisiyalar hesabına yaradılmışdır.

***- İnvestisiyaların cəlb edilməsini həvəsləndirmək məqsədilə AZPROMO hansı tədbirlər görür?***

- AZPROMO ölkə iqtisadiyyatının prioritet sahələrinə, xüsusilə qeyri-neft sahəsinə xarici investorların cəlb olunması istiqamətində çoxşaxəli işlər aparır. Azərbaycanın regionda investisiyalar üçün ən cəlbedici məkan kimi təşviq edilməsi, xarici sahibkarlara biznesin qurulması və inkişaf etdirilməsi üzrə xidmətlərin göstərilməsi, ölkəmizin investisiya imkanlarının potensial xarici investorlara çatdırılması, investisiyaların cəlb edilməsi üzrə ən qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və bunun əsasında investisiya mühitinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması fəaliyyətimizin ümumi istiqamətlərini təşkil edir.

Bu məqsədlə AZPROMO tərəfindən Azərbaycanda investisiya potensialı barədə geniş təşviqat və təbliğat kampaniyası aparılır. Potensial xarici investorlar üçün Azərbaycanın investisiya mühiti və imkanlarına dair təqdimatlar edilir. Misal üçün, AZPROMO yerli iş adamları tərəfindən təqdim olunan və ölkə iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən investisiya layihələri və xarici sərmayələr üçün cəlbedici ola biləcək prioritet istiqamətləri özündə əks etdirən «İnvestisiya layihələri toplusu» hazırlayıb. Toplu hər il yenilənərək potensial investorlara təqdim olunur, İqtisadiyyat və Sənaye Nazirliyinin və AZPROMO-nun internet səhifələri və müxtəlif kütləvi informasiya vasitələri ilə yayılır.

***- Azərbaycana sərmayə qoymaq üçün xarici şirkətlərlə əməkdaşlıq əlaqələri necə qurulur?***

- Məlumat üçün bildirim ki, xarici şirkətlər tərəfindən AZPROMO-ya Azərbaycanda investisiya qoyuluşu imkanları barədə, eləcə də yerli tərəfdaş axtarmaqla bağlı çoxsaylı sorğu və müraciətlər daxil olur. Müraciətlərdə təqdim olunan investisiya təklifləri təhlil edilir. Potensial investorların sorğuları cavablandırılır, yerli tərəfdaşların tapılmasında və onlarla əməkdaşlıq əlaqələrinin qurulmasında dəstək göstərilir. Müşahidələrimiz göstərir ki, AZPROMO-nun dəstəyi ilə tərəfdaşlıq əlaqələri qurmuş xarici və yerli şirkətlər arasında faydalı və məhsuldar əməkdaşlıq həyata keçirilir.

Onu da qeyd edim ki, xarici investisiyaları daha səmərəli təşviq etmək məqsədilə bir sıra xarici ölkələrdə, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan və Gürcüstanda AZPROMO-nun nümayəndəlikləri fəaliyyət göstərir. Xarici ölkələrdəki analoji qurumlarla, həmçinin beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edirik. İndiyə qədər müxtəlif istiqamətlər üzrə 36 ölkənin 66 təşkilatı ilə fəal qarşılıqlı əməkdaşlığa əsaslanan anlaşma memorandumları imzalanmışdır.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Qlobal vergi modeli

Qlobal vergi modelində gəlirin növündən asılı olmayaraq bütün fiziki və hüquqi şəxslər üçün eyni cür vergi tətbiq edilir. Bu sistem vergilərin ödənilməsini yüngülləşdirir və sahibkarlar üçün maliyyə nəticələrini planlaşdırmağı asanlaşdırır. Qlobal vergi modeli gəlirin eyni qaydada vergiyə cəlb olunmasını nəzərdə tutur. Nəticədə bu vergi həm horizontal, həm də vertikal ədalətliliyə müvafiq olduğuna görə, vergi ödəyicisinin ödəmə qabiliyyətini nəzərə alır. Qeyd olunan modelin istifadə olunması verginin məcburi bəyannaməsi ilə əlaqəlidir ki, bu da vergi orqanlarının bəyannamələr ilə sıx qaydada işləməsini tələb edir. Model ABŞ və Avropada daha çox istifadə olunur.

Qeyd etmək lazımdır ki, əksər ölkələrdə bu modellərin heç biri tam fəaliyyət göstərmir: birgə gəlirin vergiyə cəlb olunmasının xüsusiyyətlərində digər vergiyə cəlb olunmanın da xüsusiyyətləri mövcuddur, vergitutmanın böyük hissəsi isə gəlirlərin bəyannaməsinin heç də istisna etmir.

Birgə gəlirin hesablanmasında digər vergiyə cəlb olunma sistemindən istifadə edilməsinin əsas səbəbindən biri budur ki, əmək və kapital vergilərinin diferensial hesablanması təmin edilməlidir.

Bu cür bölüşdürmənin məqsədəuyğunluğu aşağıda göstərilən faktlarla sübut olunur. Bir tərəfdən, kapital gəlirləri (bəzən buna investisiya gəlirləri də deyilir) kifayət qədər olmalıdır ki, investorun öz kapitalını cəlb etmədiyi təqdirdə ona kompensasiya verilsin, gələcək mərhələdə inflyasiya nəticəsində baş verə biləcək itkilərin əvəzi ödənilsin.

Digər tərəfdən isə kapital gəlirləri əmək gəlirlərindən fərqli ola bilər. Bunun səbəbi kimi istehsalın çevik faktorları üzrə beynəlxalq vergi rəqabətliliyinin artmasını göstərmək mümkündür. Bu fikir irəli sürülərkən əmək çevikliyinin kapital çevikliyindən geri qaldığı nəzərə alınır. Ona görə də kapitalın artıq vergiyə cəlb olunması ölkə iqtisadiyyatı üçün təhlükəli olan kapital axınına səbəb ola və bu da öz növbəsində iqtisadi inkişafı zəiflədə bilər.

Bütün sosial bərabərliklərin şərtlərinə, əmək və kapital gəlirlərinin diferensiallaşdırılmış vergiyə cəlb olunma tələblərinə baxmayaraq, belə şərtlərdə daha çox qlobal vergi sisteminə etiraz edənlərin sayı artır. Bu isə fiziki şəxslərin vergiyə cəlb olunmasında ikiqat ya da dualistik modelin xüsusiyyətlərini xatırladır.

*Aşkar üstünlüklərinə baxmayaraq, heç bir ölkədə gəlirlərə verginin qlobal modeli tam halda tətbiq olunmur*

Qlobal vergi modelinin xüsusiyyətləri:

1) Kapitaldan gələn gəlir vergisini azaltmır və nəticədə bu, investisiya yatırımı qərarlarına təsir edir;

2) Əmək gəlirlərinin vergi qoyulmasındakı proqressiv cədvəlin tətbiqi nəticəsində ədaləti və gəlirlərin yenidən bölüşdürülməsini təmin edir;

3) Vahid mütənasib pay üzrə onların vergiyə cəlb olunması sayəsində kapitaldan gəlirlərin müxtəlif növlərinin vergi qoyulmasındakı bitərəflik şərtlərini təmin edir və vergi ödəyicilərinin verginin dərəcələrindəki fərqlərdən istifadə yolu ilə öz vergi öhdəliklərini azaltmaq şansını aşağı salır;

4) Kapitaldan gəlirlərə vergi qoyulmasının ədalətli və effektiv şərtlər sayəsində ölkəyə kapital axını üzrə aşağı payın (əlbəttə, başqa əlverişli şərtlərə riayət etmək şərti ilə) qarşısını alır;

5) Fiziki şəxslər ölkə iqtisadiyyatı üçün əhəmiyyətli daxili investorlar olduqlarından, onlar fərdi yığımın və investisiyaların həyata keçirilməsinə stimul yaradırlar.

Aşkar üstünlüklərinə baxmayaraq, heç bir ölkədə gəlirlərə verginin qlobal modeli tam halda tətbiq olunmur. Başqa sözlə, əməkhaqqından və pensiya gəlirlərindən vahid proqressiv cədvəl üzrə və həmçinin kapitaldan gəlirlərin bütün növlərindən bir pay üzrə vergi tutulmur. Bununla belə, dualist modeldən istifadə edən bütün ölkələrdə əməkdən və kapitaldan gəlirlərin vergiyə cəlb olunmasında müxtəlif yanaşmalar tətbiq edilir.

## Dünya Bankının təmsilçisi azərbaycanlı sahibkarların təkliflərini dinləyib

Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə regional vitse-prezidenti xanım Laura Tak Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev və bir qrup sahibkarla görüşüb. M.Musayev qonağa konfederasiyanın fəaliyyəti barədə ətraflı məlumat verərək Dünya Bankı ilə iqtisadi əlaqələrin qurulmasının iş adamları üçün önəmini diqqətə çatdırıb.

Görüş zamanı iş adamları Azərbaycanda sahibkarlara yaradılan əlverişli şəraitdən razılıq ediblər. Bildiriblər ki, ölkədə qeyri-neft sektorunun inkişafı istiqamətində uğurlu siyasət həyata keçirilir, Dünya Bankının layihələri və dəstəyi bu sektorun yüksəlişində əhəmiyyətli rol oynaya bilər. Bankın maliyyə sektoru ilə yanaşı, emal, nəqliyyat, xüsusilə də mikromaliyyə sahəsində əməkdaşlıq etməsi də yaxşı olardı.

Azərbaycanın özəl sektoru haqqında ətraflı məlumat alan Dünya Bankının təmsilçisi sahibkarların bu və digər təkliflərini dinləyib, iş adamlarını öz ətrafında birləşdirən ASK-ya gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycanın biznes potensialı yüksək qiymətləndirilib

*Avropa Azərbaycan Cəmiyyətinin (AAC) təşkilatçılığı, ölkəmizin Böyük Britaniyadakı səfirliyinin və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə noyabrın 5-də Londonda ənənəvi biznes forumu keçirilib.*

Forumda müxtəlif ölkələrdən dövlət və hökumət rəsmiləri, diplomatik korpusun təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən AAC-ın biznes əlaqələndiricisi Venesa Rain Azərbaycanın müasir tələblərə cavab verən infrastruktura malik olduğunu qeyd edib və ölkəmizin son illərdəki iqtisadi inkişafından, insanların həyat səviyyəsinin yüksəlməsindən, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsindən danışıb.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru Şahmar Mövsümov vurğulayıb ki, son illərdə bütün sahələrdə baş verən sürətli inkişaf, beynəlxalq qurumlarla qarşılıqlı əməkdaşlıq, neft və qeyri-neft sektorunun inkişafı, özəl və dövlət qurumlarının birgə fəaliyyəti ölkəmizdə biznesin inkişafı üçün kifayət qədər potensial olduğunu deməyə əsas verir.

Qeyd edilib ki, Azərbaycanda digər sahələrdə də artım müşahidə olunur, inflyasiya azalır, iqtisadiyyata yatırılan investisiyanın həcmi artır. Bütün bunlar ölkədə biznesin inkişafı üçün kifayət qədər potensialın olduğunu sübut edən amillərdəndir.

Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi, Lordlar Palatasının üzvü Lord Risbi ölkəmizdə maliyyə sisteminin sabitləşməsinin, yeni biznes imkanlarının yaranmasının, struktur dəyişikliklərinin və köklü islahatların şahidi olduğunu diqqətə çatdıraraq Azərbaycanın daha da inkişaf etməsi üçün yetərli potensial olduğunu vurğulayıb.

Daha sonra forum sessiyalarla davam etdirib. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Böyük Britaniya nümayəndəliyinin rəhbəri Rüfət Əfəndiyev, «TASİM» layihəsinin direktoru Zaur Həsənov, Sumqayıt Texnologiyalar Parkının bp layihələri üzrə koordinatoru Çingiz Əliyev, «İnfiPro» şirkətinin təmsilçisi Eldar Abbasov və başqaları mövzu ətrafında məruzə və təqdimatlarla çıxış ediblər.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi öhdəlikləri

***Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs itkin düşdüyü halda, onun vergi öhdəlikləri hansı qaydada yerinə yetirilir?***

Vergi Məcəlləsinin 81.3-cü maddəsinə uyğun olaraq, məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş sayılan fiziki şəxsin vergi öhdəliklərini onun əmlak sərəncamçısı kimi səlahiyyətləndirilən şəxs həmin əmlakın hesabına ödəyir.

Mülki Məcəllənin 40-cı maddəsinə əsasən, fiziki şəxsin olduğu yer məlum deyildirsə və o, iki il ərzində yaşayış yerində görünməmişsə, maraqlı şəxslərin ərizəsi əsasında məhkəmə fiziki şəxsi xəbərsiz itkin düşmüş hesab edə bilər. Xəbərsiz itkin düşmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra həmin şəxsin qanuni vərəsələri xəbərsiz itkin düşmüşün əmlakını etibar olunmuş əmlak kimi idarə etmək, o cümlədən ondan fayda götürmək ixtiyarı əldə edirlər. Bu əmlakdan xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verilir və borclar ödənilir. Xəbərsiz itkin düşmüş fiziki şəxsin qanuni əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda, əgər onun qanuni varisləri yoxdursa, məhkəmənin qərarı ilə bu əmlak qəyyumluq və himayəçilik orqanı tərəfindən müəyyənləşdirilən və həmin orqanla bağlanan etibarnamə ilə idarəetmə müqaviləsi əsasında fəaliyyət göstərən şəxsə verilir. Xəbərsiz itkin düşmüş şəxsin əmlakının idarəçisi itkin düşmüş şəxsin əmlakı hesabına onun borclarını ödəyir, əmlakı həmin şəxsin xeyrinə idarə edir, xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verir. Əgər idarəçinin təyin edildiyi gündən üç il keçənədək şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında məhkəmə qərarı ləğv edilməzsə və ölmüş sayılması haqqında məhkəməyə müraciət edilməzsə, qəyyumluq və himayəçilik orqanı fiziki şəxsin ölmüş sayılması haqqında ərizə ilə məhkəməyə müraciət etməyə borcludur.

Vergi Məcəlləsinin 81.4-cü maddəsinə əsasən, itkin düşmüş fiziki şəxsin əmlakı onun vergi öhdəliklərini ödəmək üçün kifayət deyilsə, vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Vergi Məcəlləsinin 93-cü maddəsinə uyğun olaraq, bu Məcəllədə müəyyən edilmiş vergi öhdəliyinin yerinə yetirilməsi müddəti qurtardıqda və ya müəyyən edilmiş əsaslar üzrə vergi öhdəlikləri qüvvədən düşdükdə vergi orqanı tərəfindən, digər hallarda isə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclar məhkəmə qərarı ilə ümidsiz borc hesab edildikdə qanunla müəyyən edilmiş qaydada silinə bilər.

Vergi Məcəlləsinin 81.5-ci maddəsinə əsasən, fiziki şəxsin itkin düşmüş kimi tanınmasının ləğv olunmasına dair məhkəmə qərar qəbul etdiyi halda, əvvəllər silinmiş vergi öhdəlikləri bərpa edilir, lakin fiziki şəxsin itkin düşmüş sayıldığı vaxtdan bu tanınmanın ləğv olunduğuna dair qərarın qəbul edildiyi vaxtadək olan dövr ərzində faizlər hesablanmır və maliyyə sanksiyaları tətbiq edilmir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Vergi ödəyicilərinin işi asanlaşdırılır

*Vergi xidməti sahəsində elektron xidmətlərin sayı gündən-günə artır və bu, vergi ödəyicisi kimi yenicə fəaliyyətə başlayan fiziki və hüquqi şəxslərin rahatlığının təmin olunmasında yeni imkanlar yaradır.*

***Yeni xidmətlər müəssisələrin sayının sürətlə artmasına təkan verib***

Bakı Şəhər Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin rəis müavini Samir Seyidəhmədli bildirib ki, dövlət qeydiyyatı sahəsində işlərin daha da təkmilləşdirilməsi, vergi ödəyicilərinin işinin asanlaşdırılması Vergilər Nazirliyinin daim diqqət mərkəzində saxladığı məsələlərdəndir. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 7-1-ci maddəsində edilmiş dəyişikliyə əsasən, hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialının dövlət qeydiyyatına alınma müddəti 3 gündən 2 günə, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınma müddəti isə sürətli elektron dövlət qeydiyyatı zamanı 3 gündən dərhala, adi elektron dövlət qeydiyyatı isə 3 gündən 1 günə qədər azaldılıb.

Məhz qeydiyyat prosedurlarının sadələşdirilməsi və asanlaşdırılmasından sonra, yəni dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə başlanmasından ötən müddət ərzində 131189 fiziki şəxs (19271-i elektron qaydada), 22839 kommersiya hüquqi şəxs (2552-si elektron qaydada) dövlət qeydiyyatına alınmışdır. İlkin qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin 21331-i məhdud məsuliyyətli cəmiyyət, 48-i açıq səhmdar cəmiyyəti, 44-ü qapalı səhmdar cəmiyyəti, 226-ı kooperativ və 1190-ı digər kommersiya təşkilatı (xarici hüquqi şəxslərin nümayəndəlikləri və filialları) olub.

Qanunvericiliyə əsasən, hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə müvafiq məlumatın olması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi elektron formada həyata keçirilməyə başlanıb. «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərc olunma faktını təsdiq edən sənədin verilməsi» adlı inzibati reqlament Vergilər Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilərək vergi ödəyicilərinin istifadəsinə verilib.

***Yeni yaradılan müəssisənin adını əvvəlcədən bron edə bilərsiniz***

Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı prosedurlarının təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyi sahibkarlara təqdim etdiyi daha bir xidmət kommersiya hüquqi şəxsin adının bron (rezerv) edilməsidir. S.Seyidəhmədlinin sözlərinə görə, Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində «Eyni adlı hüquqi şəxsin olub-olmamasının yoxlanılması» xidmətinin mövcudluğuna baxmayaraq, bəzi hallarda kommersiya hüquqi şəxsi təsis etmək istəyənlər yaratdıqları quruma ad seçərkən müəyyən çətinliklərlə üzləşirlər. Çünki həmin hüquqi şəxs seçilmiş təkrarolunmaz ad qeydiyyat sənədlərini vergi orqanına çatdırana qədər öz unikallığını «itirə», yəni digər təsisçilər tərəfindən istifadə oluna bilər. Narahatlığa səbəb olan bu faktorun aradan qaldırılması üçün xüsusi proqram təminatı hazırlanıb və İnternet Vergi İdarəsində «Kommersiya hüquqi şəxsin adının bron (rezerv) edilməsi» xidməti kimi fəaliyyət göstərir. Bu xidmət vasitəsilə yerli investisiyalı kommersiya hüquqi şəxsi (məhdud məsuliyyətli cəmiyyət) təsis edən vətəndaşlara e-qeydiyyata alınacaq hüquqi şəxs üçün seçdikləri adın vergi orqanında 60 gün müddətində bron (rezerv) etdirmək imkanı yaradılır. Burada «Asan imza» sahiblərinə xidmət göstəriləcək və onun vasitəsilə vahid zaman kəsiyində hər bir şəxs yalnız bir ad bron edə biləcək. Yəni «gözləmədə» olan bron olunmuş ad təyinatı üzrə istifadə edildikdə və ya bronun qüvvədə olduğu müddət (60 gün) bitdikdə həmin şəxsin yeni ad bron etməsi mümkündür. Bron olunma müddəti kommersiya hüquqi şəxs üçün seçilmiş adın vergi orqanı tərəfindən brona qəbul edildiyi gündən hesablanır. Bron qüvvədə olan müddətdə bron edilmiş ad «Eyni adlı hüquqi şəxsin olub-olmamasının yoxlanılması» xidmətinə də əlavə ediləcək və onun digər istifadəçilər tərəfindən təkrar seçilməsinə yol verilməyəcək. Vətəndaşlar göstərilən bu xidmətə görə hər hansı haqq ödəməyəcəklər.

***Qeydiyyat zamanı vətəndaşlara bütün köməkliklər göstərilir***

S.Seyidəhmədli bildirib ki, qeydiyyatla bağlı inzibati reqlamentlər, qeydiyyat üzrə ərizə formaları və onların doldurulma qaydaları, təşkilati-hüquqi formasından asılı olaraq kommersiya qurumlarının nizamnamə və qərar formaları və s. hazırlanıb, hər kəsin istifadə edə bilməsi üçün Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilib. Həmçinin sahibkarların kommersiya hüquqi şəxs yaratmaq üçün hazırladıqları hüquqi sənədləri qeydiyyat orqanına gəlmədən yoxlanılması üçün saytda idarənin hüquqşünaslarının elektron ünvanları yerləşdirilmişdir. Bundan başqa, vergi əməkdaşları iş günü ərzində xidməti telefon və elektron poçt vasitəsilə müraciət etmiş şəxslərə geniş məlumatlar verərək onları maraqlandıran bütün suallara ətraflı cavablar verirlər.

Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin Qeydiyyat və Qeydiyyatın təşkili şöbələrində hüquqi şəxsin adının unikallığının yoxlanılması üçün vətəndaşların özlərinin sərbəst istifadə etməsinə imkan verən xüsusi məlumat köşkləri quraşdırılıb. Qeydiyyat zalının divarında quraşdırılmış stendlərdə müraciət ərizələrinin nümunəvi formaları və onların doldurulma qaydaları, müxtəlif vergi növləri barədə bukletlər yerləşdirilib.

***Dövlət qeydiyyatının təşkili günün tələbləri səviyyəsində qurulub***

Qeydiyyat üçün müraciət edən «International Trade» MMC-nin Baki filialının təmsilçisi Rəşad Cəfərovun sözlərinə görə, kommersiya qurumlarının dövlət qeydiyyatı və vergi ödəyicilərinin uçotunun aparılması qaydaları və müddətləri, bu qaydaların pozulmasına görə tətbiq edilən maliyyə sanksiyaları barədə qanunvericiliyin müvafiq maddələri və dövlət qeydiyyatının aparılması üçün təqdim edilməli olan sənədlərin siyahısı hüquqşünaslar tərəfindən bildirilir və lazımi izahatlar verilir. Bu isə dövlət qeydiyyatı prosedurlarını rahat şəkildə həyata keçirmək üçün münbit şərait yaradır.



«Erka Konsaltinq LTD» MMC-nin nümayəndəsi Rüfət Quliyev bildirib ki, ərizə və ona əlavə edilmiş zəruri sənədlər hüquqşünaslar tərəfindən onun iştirakı ilə bir daha yoxlanılıb, çatışmazlıqlar barədə ətraflı məlumatlar verilib və buraxılmış nöqsanlar aradan qaldırılıb: «Müəssisəmiz qeydiyyata alındıqdan sonra qeydiyyat sənədləri təqdim edilərkən bir daha vergi qanunvericiliyi, bəyannamə formaları və onların doldurulması qaydaları, vergi öhdəlikləri və vergi məsuliyyəti barədə bizə məlumatlar verildi. Həmçinin dövlət statistika orqanlarına, Sosial Müdafiə Fondunun və Məşğulluq Xidmətinin idarələrinə təqdim edilməli olan hesabatlar haqqında xüsusi hazırlanmış icmal məlumatlar barədə bukletlər, təlimatlar və yaddaşdan ibarət sənəd dəsti də mənə təqdim edildi. Bu, çox yaxşı haldır. Artıq bu məsələlərlə bağlı ətraflı məlumatım var və nə edəcəyimi yaxşı öyrənmişəm».

**Rəşad SADIQOV**

# Pensiyaçıların sosial müdafiəsi gücləndirilir

Ölkəmizdə pensiya təminatı üzrə aparılan islahatlar nəticəsində vahid sistem formalaşıb ki, burada sosial sığorta, fərdi uçot və digər funksiyalar bir-birini tamamlayır. Lakin görülən işlərlə yanaşı, pensiya təminatı sistemində bir sıra həllini gözləyən problemlər də mövcuddur. Hazırkı şərtlər daxilində uzunmüddətli dövr üzrə maliyyə dayanıqlığının olmaması, əmək pensiyasının baza hissəsinin növbəti mərhələdə tətbiqinin islahat tələblərinə uyğunsuzluğu, yığım potensialının zəiflədən faktorlar və s. bu problemlərə daxildir.

Bu günlərdə ölkə başçısının sərəncamı ilə «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası» təsdiq edilib. Burada diqqət mərkəzində olan başlıca istiqamət pensiya təminatı sisteminin cari, ortamüddətli və uzunmüddətli dövr üzrə maliyyə dayanıqlığına nail olunması, vətəndaşların sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin edilməsidir.

Pensiya təminatı sistemində islahatların başlıca məqsədi bu sahədə sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanılan sığorta vəsaitləri arasında balanslaşdırma mexanizmlərinin formalaşdırılması; təyin olunan pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi; aktuar təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması, sığorta prinsiplərinə uyğun olmayan ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən bir sıra öhdəliklərin dövlət öhdəliyi kimi fərqləndirilməsi, əmək pensiyalarının könüllü yığım komponentinin real praktikada tətbiqi və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsidir.

Konsepsiyada pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlığına nail olunması üçün bu sahədə öhdəliklərin dəqiqləşdirilməsi, məcburi dövlət sosial sığorta haqlarının yalnız sosial sığorta nəticəsində yaranan xərclərə yönəldilməsi, sığorta prinsiplərinə əsaslanmayan xərclərin isə minimum səviyyəyə endirilməklə maliyyələşdirilməsi mənbələrinin optimallaşdırılması nəzərdə tutulur. Bunun üçün pensiya məbləğlərinin bir hissəsini təşkil edən sosial sığorta qanunvericiliyinin tətbiq olunduğu 1992-ci il 1 yanvar tarixindən əvvəlki dövr üzrə formalaşmış məbləğlərin, həmçinin bir sıra vəzifələrdə qulluq etmiş şəxslərə verilən qulluq stajına görə əmək pensiyasına əlavələrin ödənilməsinə yönəldilən xərclərin dövlət öhdəliyi kimi fərqləndirilməsi planlaşdırılır. Eyni zamanda, aparılan islahatlarla pensiya məbləğlərinin hər bir şəxsin ödədiyi sığorta haqqına uyğun müəyyənləşdirilməsi nəzərdə tutulur. Bundan əlavə, əməkhaqqı yüksək olan şəxslərin ödədiyi sığorta haqqının əməkhaqqı aşağı səviyyədə olan şəxslərin pensiyalarına yönəldilməsi praktikasının dəyişdirilməsi də təklif olunur. Əmək fəaliyyəti dövründə yüksək məbləğdə sığorta haqqı ödəmiş işçilər adekvat əvəzetmə əmsalına malik olacaqlar.

*Təyin olunacaq pensiyada ödənilən sığorta haqqının tam məbləğdə nəzərə alınmasına, sığorta prinsiplərinin gücləndirilməsinə şərait yaranacaq*

Konsepsiyanın əsas istiqamətlərindən biri də əmək pensiyasının baza hissəsinin restrukturizasiyasıdır ki, bu da işçilərin şərti yığım sistemlərində uçota alınmış vəsaitin artırılmasına şərait yaradacaq, işləyənlərin fərdi hesablarında nəzərə alınan vəsait ödənilən sığorta haqqının yarısını deyil, tam məbləğdə nəzərə alınmasını təmin edəcək. Təyin olunacaq pensiyada ödənilən sığorta haqqının tam məbləğdə nəzərə alınmasına, sığorta prinsiplərinin gücləndirilməsinə şərait yaranacaq. Restrukturizasiya ilə bağlı minimum pensiya məbləği göstəricisi tətbiq ediləcək. Fərdi hesab məlumatlarına əsasən təyin olunan pensiyaların məbləği minimum pensiya məbləğindən aşağı olduqda pensiya hüququ üçün sığorta stajına tələb qoyulmaqla, bu məbləğlər bərabələşdiriləcək. Təyin olunan pensiyanın məbləği minimum pensiya məbləğindən yuxarı olduğu hallarda isə sığorta stajına tələb qoyulmayacaq. Minimum pensiya məbləğinin artımı ayrılıqda deyil, ümumi pensiya məbləğləri ilə birlikdə indeksləşdirmə qaydasında aparılacaq.

Konsepsiyada pensiya təminatı sistemində iştiraka marağın artırılmasını təmin etmək məqsədi ilə sığorta haqqı normativinin müəyyən hissəsinin işəgötürənin üzərindən tədricən işçinin üzərinə keçirilməsi də nəzərdə tutulur. Pensiya təminatı sisteminin cəlbediciliyinin artırılması, işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsində və əməyin ödənişinin təşkilində mövcud problemlərin aradan qaldırılması vasitəsilə sığorta haqqı ödəyənlərin sayının pensiyaçıların sayına nisbətinin optimallaşdırılması pensiya təminatı sisteminin maliyyə daxilolmalarının artıran mühüm mənbə kimi qiymətləndirilir. Eləcə də sığorta prinsiplərinə uyğun olmayan, yəni güzəştli və xüsusi şərtlərlə, habelə erkən pensiyaya çıxma hallarında pensiya məbləği ilə ödənilən sığorta haqqı arasında mütənasibliyin təmin edilməsi məqsədi ilə pensiya yaşının optimal həddinin müəyyən edilməsi, zərərli və təhlükəli işlərdə çalışanlar, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar və digər kateqoriyalar üçün pensiya təyinatı və sığorta haqqı normativləri şərtlərinə yenidən baxılması nəzərdə tutulur.

Pensiya təminatı sisteminin perspektiv inkişafının aktuar modelləşdirmə əsasında proqnozlaşdırılmasının təmin edilməsi sistemdə baş verəcək proseslərin əvvəlcədən müəyyənləşdirilməsinə və onun idarə olunması üçün qabaqlayıcı tədbirlərin görülməsinə şərait yaradacaqdır.

Konsepsiyada əhalinin etibarlı pensiya təminatına nail olunması üçün məcburi dövlət sosial sığortasından əlavə təminata imkan verən mexanizmlərin formalaşdırılması da nəzərdə tutulur. Dövlət pensiya təminatı sistemində yığım komponentinin, eləcə də qeyri-dövlət pensiya institutlarının təşkili üçün könüllü sosial sığortanın tətbiqi məqsədəuyğun hesab edilir.

Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrası nəticəsində pensiya təminatı sistemində təyin olunan pensiya məbləği ilə ödənilən sığorta haqqının məbləği uyğunluq təşkil edəcək, yığım potensialı güclənəcək, sosial sığorta haqqı normativinin strukturu təkmilləşdiriləcək, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınanların sayı azalacaq.

Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyevin sözlərinə görə, artıq DSMF-də Konsepsiyadan irəli gələn vəzifələrin icrası məqsədilə xüsusi əlaqələndirmə komissiyası yaradılıb və bu istiqamətdə həyata keçirilən tədbirlər, hazırlanacaq normativ sənəd layihələri mütəmadi şəkildə ictimai müzakirələrə çıxarılacaqdır.

**AYTƏN**

# İcbari sığortalar təkmilləşdirilir

*Azərbaycanda icbari sığortanın ən vacib növlərindən biri də avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (AVSMMİS) sayılır.*




İcbari Sığorta Bürosu (İSB) sığortanın bu növü üzrə vahid, mərkəzləşdirilmiş idarəetmə sistemi və icbari avtomobil sığortası sahəsində ödəmələrlə bağlı tələblərin emalının hazırlanmasına başlayıb. Yeni sistem bütün şirkətlər arasında sənəd dövriyyəsi, eləcə də elektron formada dövriyyənin işini asanlaşdırmağa xidmət göstərməyə hesablanıb. İcbari Sığorta Bürosuna 15 sığorta şirkəti daxildir ki, onlardan 11-i AVSMMİS üzrə satış hüququna malikdir.

Büronun İnformasiya texnologiyası, təlim və dəstək şöbəsinin müdiri Nizami Kərimovun sözlərinə görə, 2014-cü ilin ilk altı ayında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanan sığorta müqavilələrinin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,85% azalma olsa da, sığorta şirkətləri tərəfindən həyata keçirilən sığorta ödənişlərinin məbləğində 13%-ə qədər artım müşahidə edilmişdir: «Cari ilin iyul ayından sığorta müqavilələrinin sayında əhəmiyyətli dərəcədə artım müşahidə edilir. Bunun əsas səbəbi icbari sığorta müqaviləsinin bağlanmamasına görə cərimələrin artırılması ilə bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində edilmiş və 16 iyul 2014-cü il tarixindən qüvvəyə minmiş dəyişikliklərdir. Ümumilikdə, cari ilin ilk 9 ayı ərzində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 688 mindən çox sığorta müqaviləsi bağlanılmışdır. Bu müqavilələr üzrə sığorta haqlarının məbləği 51,7 milyon manat təşkil etmişdir. 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə sığorta müqavilələrinin sayında 5,92 %, sığorta haqlarının məbləğində isə 6,1% artım olmuşdur. İSB-nin iştirakçıları olan sığorta şirkətləri tərəfindən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə həyata keçirilən sığorta ödənişlərinin məbləğində ilbəil artım müşahidə olunur. Büronun iştirakçıları olan sığorta şirkətləri tərəfindən 2013-cü ildə həyata keçirilən sığorta ödənişlərinin məbləği 2012-ci illə müqayisədə 3,7 dəfə çox olmuşdur. Ötən ilin ilk 9 ayı ilə müqayisədə isə cari ilin eyni dövründə sığorta şirkətlərinin ödənişləri 10% artaraq 19,4 milyon manata çatmışdır.

Qeyd etmək lazımdır ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə Büronun iştirakçıları olan sığorta şirkətlərinə qarşı irəli sürülən sığorta tələblərinin 01 aprel 2012-ci il tarixindən etibarən qurumun informasiya sistemində qeydiyyatı aparılır. Bu sistemin təkmilləşdirilməsi, sığorta tələblərinin tənzimlənməsi prosesinin avtomatlaşdırılmış şəkildə həyata keçirilməsinin təmin olunması məqsədi ilə yeni proqram təminatı hazırlanmışdır və tətbiqinə 3 noyabr 2014-cü ildən başlanılıb».

N.Kərimov bildirir ki, yeni proqram təminatının iştirakçı sığorta şirkətlərinin daxili proqram təminatlarına inteqrasiya edilməsi üçün onlara veb-servis sənədləri təqdim edilmiş, sığorta şirkətlərinin zərərlərin tənzimlənməsi üzrə nümayəndələrinə proqram təminatının istifadəsi ilə bağlı təlim keçilmişdir.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası ilə yanaşı, gələcəkdə yeni proqram təminatı vasitəsilə daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortası üzrə İSB-nin iştirakçıları olan sığorta şirkətlərinə qarşı irəli sürülən sığorta tələblərinin tənzimlənməsi prosesi mümkün olacaq.

Tətbiq olunacaq yeni sistemin üstünlükləri ilə bağlı bildirilmişdir ki, bu, sığorta tələbləri üzrə şifahi müraciətdən başlayaraq sığorta ödənişinin verilməsinədək, həmçinin subroqasiya işinin yekunlaşdırılmasınadək prosesin tam avtomatlaşdırılmasına imkan verəcəkdir: «Sığorta tələbinin tənzimlənməsinin müvafiq mərhələlərində sistemin texniki imkanları hesabına iş üzrə aidiyyəti şəxslərin SMS, elektron poçt və ya rəsmi məktub vasitəsilə avtomatik məlumatlandırılması mümkün olacaqdır; müvafiq sığorta tələbi üzrə çatışmayan sənədlərin sistem tərəfindən avtomatik müəyyən olunması, sığorta tələbini irəli sürən şəxsin, o cümlədən sığorta şirkətinin həmin sığorta tələbi ilə işləyən əməkdaşının bu barədə avtomatik qaydada sistem tərəfindən məlumatlandırılması həyata keçiriləcəkdir; sığorta tələbinə dair müxtəlif (sığorta ödənişləri və s. haqqında) hesabatların birbaşa EXCEL, PDF formatına köçürülməsi, aylıq, rüblük, illik hesabatların rəhbər şəxslərə avtomatik göndərilməsi təmin olunacaqdır; sığorta tələbləri və sığorta hadisələri barədə daha ətraflı və dolğun statistik məlumatların əldə edilməsi mümkün olacaqdır və s. Həmçinin sistemin tətbiqinə başlandıqdan bir müddət sonra vətəndaşlar üçün İSB-nin internet səhifəsi üzərindən sığorta tələbinin statusunun öyrənilməsi, sığorta tələbi haqqında qısa tarixçənin əldə edilməsi imkanı da yaradılacaqdır».

N.Kərimovun sözlərinə görə, sığorta müqavilələrinin mövcudluğunun internet səhifəsi üzərindən yoxlanılmasını nəzərdə tutan mövcud sistem daha da təkmilləşdirilmiş, funksionallığı artırılmışdır: «Hazırda bu sistem vasitəsilə əlavə olaraq yol-nəqliyyat hadisəsinin baş verdiyi tarixə müvafiq icbari sığorta müqaviləsinin qüvvədə olub-olmamasını yoxlamaq mümkün olacaqdır. İstifadəyə verilən bu elektron xidmətlər siyahısına yaxın zamanda daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, sərnişinlərin icbari fərdi qəza sığortası müqavilələrinin mövcudluğunun yoxlanılması modulları da əlavə olunacaqdır. Gələcəkdə sığortalının bonus-malus sinfinin yoxlanılması və sığorta tələbləri haqqında qısa məlumatların əldə edilməsi kimi funksiyaların da bu elektron xidmətlər siyahısına əlavə edilməsi nəzərdə tutulur».

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanın mövqeyi yüksəlir

## *Bu, «Doing Business-2015» hesabatında özünü daha bariz nümayiş etdirir*

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən «Doing Business 2015» hesabatında Azərbaycan 189 ölkə arasında 8 pillə irəliləyərək 80-ci yerə yüksəlib və bir sıra göstəricilər üzrə qabaqcıl ölkələr sırasında qərarlaşıb. Biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən yeni hesabatda ölkəmiz ən çox islahat aparan 10 ölkə sırasında 8-ci yerdə mövqe tutub.

Azərbaycan hesabatda 3 göstərici üzrə («Əmlakın qeydiyyatı», «Biznesə başlama» və «Vergilərin ödənişi») həyata keçirilən islahatlar üzrə ən yaxşı göstəricisi olan ölkələr sırasındadır. «Biznesə başlama»da qeydiyyatın elektron qaydada aparılmasının tətbiqi, «Əmlakın qeydiyyatı»nda notariuslar və əmlakın reyestri informasiya bazasının onlayn rejimə inteqrasiyası, «Vergilərin ödənişi»ndə hesabat və ödənişlərin elektron qaydada aparılmasının geniş tətbiqi müsbət nümunə kimi ayrıca vurğulanıb. Ölkəmizin «əmək bazarının səmərəliliyi», «texnoloji səviyyə», «maliyyə bazarının inkişafı» göstəriciləri üzrə də mövqeyi yaxşılaşıb.

Ötənilki nəticələrlə müqayisədə Azərbaycan vergilərin ödənişi indeksi üzrə 44 pillə irəliləyərək 77-ci yerdən 33-cü yerə yüksəlib. Beləliklə, ölkəmizin mövqeyi «Vergilərin ödənilməsi» göstəricisi üzrə 44 pillə, «Tikinti icazələrinin alınması» üzrə 30 pillə, «Elektrik təchizatı şəbəkələrinə qoşulma» üzrə 22 pillə, «Əmlakın qeydiyyatı» üzrə 3 pillə, «Xarici ticarətin aparılması» üzrə 2 pillə irəliləyib.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinovun sözlərinə görə, respublikamızda dayanıqlı, çevik, şəffaf və sabit vergi sisteminin qurulması, vergi sahəsində həyata keçirilən sistemli islahatlar, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq olunması bu sahədə mühüm naliyyətlərin əldə edilməsinə zəmin yaradıb. Ölkəmizdə şəffaf vergi sisteminin qurulması biznesin inkişafına güclü təkan verib, sahibkarların əlverişli fəaliyyəti üçün hərtərəfli imkanlar açıb.

Son illərdə biznes mühitinin əlverişliliyinin artırılmasına bilavasitə təsir edən başlıca amillərdən biri kimi vergilərin sayı, sosial sığorta ödənişləri xeyli azaldılıb. 1998-ci ildən vergi dərəcələri ardıcıl olaraq endirilməkdədir. Müəssisə və təşkilatların mənfəətindən vergi tutulmasının proqressiv sistemindən proporsional sistemə keçilməsi və bu vergi növü üzrə vergi dərəcəsinin tədricən 35%-dən 20%-ə endirilməsi, ƏDV-nin dərəcəsinin 18%-dək azaldılması, bir sıra vergilərin ləğv edilməsi, sosial sığorta ayırmalarının 40%-dən 22%-dək aşağı salınması, vergilərin ümumi sayının azaldılması baş verib. Vergi Məcəlləsinə edilən dəyişikliklər bir sıra faiz dərəcələrinin, o cümlədən gəlir vergisi üzrə faiz dərəcələrinin azaldılmasına, eləcə də hüquqi şəxslərin mənfəət vergisi və ƏDV-nin ödəniş prosesinin sadələşdirilməsinə xidmət edib.

Qeyd olunan amillər «Doing Business» hesabatlarında hər il Azərbaycanın vergilərin ödənişi, vergiqoyma, vergi inzibatçılığının digər istiqamətləri üzrə göstəricilərinin yaxşılaşmasını, ölkəmizin hər il reytinq cədvəlində irəliləməsini şərtləndirir. Azərbaycan ödəmələrin sayı və ödənişlərə sərf olunan vaxt meyarlarına görə son illər əhəmiyyətli dərəcədə irəliləyiş əldə edib. Respublikamız vergi ödənişlərinin sadəliyi indeksi üzrə də MDB regionu ölkələrinin əksəriyyətindən irəlidədir. Hesabatdan da göründüyü kimi, vergi ödənilməsi ilə bağlı aparılan inzibatçılıq prosesləri vergi ödəyicilərinin vaxtının və xərclərinin azaldılmasına şərait yaradıb, ödənişlərin sadə və rahatlığını təmin edib. Vergitutma proseslərinin sadələşdirilməsi son 5 ildə respublikamızın vergi ödəmələrinin sadəliyi reytinqində mövqeyinin möhkəmlənməsinə mühüm təsir göstərib.

*«Doing Business» hesabatlarında hər il Azərbaycanın vergilərin ödənişi, vergiqoyma, vergi inzibatçılığının digər istiqamətləri üzrə göstəricilərinin yaxşılaşması öz əksini tapır*

Vergi Məcəlləsinə edilmiş mühüm dəyişikliklər, həmçinin elektron xidmətlərin tətbiqinin genişləndirilməsi vergi ödənişlərinə sərf olunan müddətin azalmasına səbəb olub. Ümumiyyətlə, son 5 ildə Azərbaycanın vergi sistemi qeyd olunan istiqamət üzrə ən yaxşı nəticələr əldə edən ölkələr qrupuna daxil olub. «Doing Business» hesabatlarına əsasən, vergi ödənişləri üzrə sərf olunan müddət 2008-ci ildə 952 saat təşkil etdiyi halda 2011-ci ildə 306 saat, 2012-ci ildə 225 saat, 2013-cü ildə isə 214 saat olub.

Göründüyü kimi, vergilərin ödənilməsinə sərf olunan vaxt əmsalı son 5 ildə təxminən 4,5 dəfə azalıb. Yeri gəlmişkən, dünya ölkələrinin vergi administrasiyalarının son illərdə tətbiq etdiyi yeni elektron texnologiyalar ödənişlərlə bağlı vaxt əmsalının yaxşılaşmasında əsas vasitə olub. Bu mənada, Azərbaycanda vergi ödəmələrinin həm sayı, həm vaxt meyarı ilə bağlı müsbət nəticələrin əldə olunmasında müasir informasiya-kommunikasiya texnologiyalarının, elektron xidmətlərin tətbiqinin mühüm əhəmiyyət kəsb etdiyini görmək olar.

Hesabatın ən mühüm indikatorlarından biri olan «Biznesə başlama» üzrə ölkəmizin mövqeyinin yaxşılaşmasında sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin və qeydiyyat sisteminin təkmilləşdirilməsi, həmçinin əlverişli biznes mühitinin formalaşdırılması mühüm rol oynayıb. Vergi sistemində tətbiq olunan «bir pəncərə» prinsipi biznesin inkişafına, azad rəqabət prinsipinin formalaşmasına güclü dəstək olmaqla yanaşı, sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatını əhəmiyyətli dərəcədə asanlaşdırıb. Bu sistemin tətbiqi qeydiyyat prosedurlarının sayının azalması, vaxt itkisinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir. Sahibkarların qeydiyyatı sahəsində yaradılmış ən mükəmməl elektron qeydiyyat sisteminin tətbiqi nəticəsində kommersiya hüquqi şəxsin qeydiyyatı üçün yerinə yetirilməli olan prosedurların sayı 3-ə, sərf edilən müddət 5 günə enib. Ötənilki hesabatla müqayisədə «biznesə başlama» üzrə vaxt müddəti 7 gündən 5 günə enib.

Azərbaycanda biznesin qeydiyyatı üzrə islahatlar davam etdirilir. Prezident İlham Əliyevin ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılmasını nəzərdə tutan «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərmanına əsasən, bir sıra biznes sahələrində qeydiyyat üzrə prosedur, müddət və xərclərin azaldılması və sadələşdirilməsi işləri aparılır. Buna uyğun olaraq, hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin «bir pəncərə» prinsipi əsasında elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması nəzərdə tutulur. E-qeydiyyatın daha da sadələşdirilməsi biznes mühitini yaxşılaşdıracaq, sahibkarların sayını artıracaq.

Qarşıdakı ildə başlıca hədəflərdən biri vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin tam elektronlaşdırılması işlərinin davam etdirilməsidir. Vergi sistemində qeydiyyat, bəyannamələrin təqdim edilməsi, vergi ödənişləri, nəzarət və digər proseslərin müasir elektron texnologiyalardan istifadə olunmaqla həyata keçirilməsi, digər tədbirlərin davam etdirilməsi ödəyicilərə göstərilən xidmətlərin səviyyəsinin daha da yüksəldilməsinə, vergi ödəyicilərinin inzibatçılıq xərclərinin əhəmiyyətli şəkildə aşağı düşməsinə və inzibati idarəetmənin keyfiyyətcə daha da yaxşılaşmasına imkan verəcək.

Beləliklə, bu sahədə prosedur və qaydaların təkmilləşdirilməsi və aparılan məqsədyönlü islahtlar Azərbaycanın beynəlxalq təşkilatların hesabatlarında mövqeyinin daha da yaxşılaşmasına mühüm təsir göstərəcək.

**Elbrus CƏFƏRLİ**

# Vətəndaşların məşğulluğuna diqqət artırılır

*İşsiz və işaxtaran vətəndaşların işlə təminatı, əsasən də sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin işlə təminatı məsələsinə hökumət tərəfindən xüsusi diqqət ayrılır.*

Nazirlər Kabinetinin təsdiq etdiyi «Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası»na əsasən, müəssisələrdə işçilərin sayı 25-dən 50-dək olduqda onların orta illik siyahı sayının 3%-i, 50-dən 100-dək olduqda 4%-i, 100-dən çox olduqda isə 5%-i miqdarında kvota yeri müəyyən edilir. Bu, iş məsələsində problemlər yaşayan vətəndaşların, eləcə də əlilliyi olan şəxslərin müəyyən bir hissəsinin işlə təmin olunmasına imkan verir.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar - 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, əlil uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına 2 ildən az qalmış şəxslər, əlillər, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar, məcburi köçkünlər, müharibə veteranları, şəhid ailələri hesab edilir. Bu ilin ilk on ayı ərzində həmin təbəqədən 814 nəfər vətəndaşın məşğulluğu təmin edilib. Həmin şəxslərin 172 nəfərini yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, 191 nəfərini əlillər, 172 nəfərini qaçqın və məcburi köçkünlər, 148 nəfərini 20 yaşadək gənclər, 32 nəfərini müharibə veteranları təşkil edib. Həmçinin şəhid ailəsi üzvləri olan 20 nəfər, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş 19 nəfər, sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən 22 nəfər, pensiya yaşına 2 ildən az qalmış 38 nəfər şəxs də kvota üzrə iş yerləri ilə təmin olunub.

### *İşəgötürənlərin inzibati məsuliyyətə cəlb olunması*

Kvotanın şamil edilməsi respublikada fəaliyyət göstərən bütün idarə və təşkilatlara aid edilmir. Dövlət orqanları, mərkəzi və yerli seçkili orqanlar, elm və ali təhsil müəssisələri, işçilərin orta illik siyahı sayı 25 nəfərdən az olan müəssisələr, hərbi qurumların, hüquq-mühafizə, milli təhlükəsizlik və prokurorluq orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən struktur bölmələri, penitensiar müəssisələr və istintaq təcridxanalarına kvota şamil edilmir. Bu müəssisələr istisna olmaqla, mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün idarə, müəssisə və təşkilatlarda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunu təmin etmək üçün kvota qoyulur. Müəssisələr üçün kvota müəyyən edilərkən və işəgötürənlə işçi arasında əmək müqaviləsi bağlanarkən qadınların, yaşı 18-dən az olan işçilərin və əlillərin işləməsi üçün müvafiq normativ-hüquqi aktlarla qadağan olunan istehsalat sahələrinin siyahıları nəzərə alınır.









Şəhər, rayon məşğulluq mərkəzləri tərəfindən göndərilmiş əlilləri və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxsləri onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən, eləcə də kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında qanunvericilikdə nəzərdə tutulmuş müddətdə müvafiq forma üzrə aylıq hesabatı təqdim etməyən işəgötürənlər inzibati məsuliyyətə cəlb olunurlar. İşəgötürənlərin cərimələnməsi onların aylıq maaşından və ya digər gəlirlərindən tutula bilər.

### *Yeri gəlmişkən...*

Məşğulluğun təmin edilməsində xüsusi diqqət tələb edən kateqoriyaya aid əlilliyi olan şəxslər peşə hazırlığı kurslarına da cəlb edilirlər. Bu kursları bitirənlərin qısa müddətdə məşğulluqlarının təmin olunması istiqamətində müvafiq işlər görülür.

Bu ilin əvvəlindən 340 nəfər əlilliyi olan şəxs peşə hazırlığı kurslarına cəlb olunub. Onlardan dərzi, toxucu, xalçaçı, aşpaz, bərbər və s. üzrə, gözdən əlilliyi olan 60 nəfər üçün isə brayl sistemi üzrə peşə təlimi aparılıb. Təlim müddətində həmin şəxslər dövlət hesabına yataqxana, yemək, kommunal və tibbi xidmətlə təmin ediliblər.

**AYTƏN**

# Kredit faizləri niyə aşağı düşmür?

Məlum olduğu kimi, Mərkəzi Bank (MB) makroiqtisadi sabitliyi, inflyasiyanın aşağı səviyyəsini, pul kütləsinin artım templərini, habelə milli iqtisadiyyatın şaxələnməsi prioritetlərini nəzərə alaraq iyulun 30-dan uçot dərəcələrini 4,25%-dən 3,5%-ə endirib. MB-nin bankların təklif etdiyi kredit resurslarının ucuzlaşmasına hesablanan təsirli addımlarına baxmayaraq, kommersiya banklarının təklif etdiyi istehlak kreditləri üzrə illik dərəcələr hələ də 28-34% civarındadır. Bəs mütəxəssislər bu barədə nə fikirdədir?

«İnkişaf üçün maliyyə» bank olmayan kredit təşkilatının kreditlər üzrə baş müdiri Yusif Abdullayev bildirdi ki, uçot dərəcəsinin aşağı salınması kredit faizlərinin azalmasına səbəb olmalıdır: «Bu o zaman baş verər ki, kommersiya bankları MB-dən göstərilən məzənnə ilə resurs cəlb etsinlər. Bizim bazarda fəaliyyət göstərən kommersiya banklarının əsas maliyyə mənbələri sırasında Mərkəzi Bankdan cəlb olunmuş resurslar yoxdur. Bankların passivləri, əsasən, depozitlər, beynəlxalq maliyyə təşkilatlarından və xarici banklardan alınmış vəsaitlər hesabına formalaşır. Daha əvvəllər də AMB uçot dərəcələrini aşağı salsa da, kredit faizlərinin azalmasını müşahidə etməmişik».

Mərkəzi Bankın son məlumatına görə, banklarda 2 milyard manatdan artıq likvid vəsait mövcuddur və bu, son hədd deyil. Son illərdə iqtisadiyyatda və bank sektorunda olan inkişaf, beynəlxaq maliyyə bazarlarında təcrübə kommersiya banklarının beynəlxaq reytinqinin və nüfuzunun artması ilə nəticələnib. Mütəxəssisin fikrincə, bu gün xaricdən istər investisiya formasında, istərsə də kredit formasında vəsait cəlb etmək üçün böyük imkanlar var. Əgər iqtisadiyyatın kredit qoyuluşlarına tələbi artarsa, kommersiya bankları çox rahatlıqla bunu qarşılamaq iqtidarındadır.

Banklar istehlak kreditlərindən başqa mikrobiznes kreditləri də verirlər. Ümumiyyətlə, istehlak krediti ilə mikrobiznes kreditləri arasında hansı fərqlər mövcuddur?

ri mövcuddur. Bu kreditləri istehlak kreditləri sırasına aid etsələr də, onun daimi istehlak təyinatı ilə istifadə olunacağından əmin olmaq çətindir. Ümumiyyətlə, kreditləşmə prosesində kreditin təyinatı, yəni bankdan alınan vəsaitin nə üçün istifadə olunması vacib faktordur. Kreditorlar verdikləri pulun bəyan olunmuş təyinat üzrə xərclənməsində maraqlı olurlar. İstehlak kreditlərində bu məsələyə müəyyən qədər nəzarət etmək olur. Ən azından vəsait nağd olaraq müştəriyə verilmir, müştərinin almaq istədiyi və ya dəyərini ödəmək istədiyi mal və xidmətin satıcısına, təchizatçısına köçürülür. Amma bu gün həm müştərilər, həm də banklar istehlak kreditinin bir növü kimi qəbul olunan nağd pul kreditlərinə üstünlük verirlər. Nağd pul kreditlərində də kreditin təyinatı haqqında müştəri tərəfindən məlumat verilir. Lakin bu vəsaitin həmin istiqamətdə sərf olunmasını yoxlamaq və nəzarət etmək çətindir. Dolayısı ilə, nağd pul krediti həm istehlak, həm də biznes təyinatı ilə istifadə oluna bilir».

Mütəxəssis qeyd edir ki, hazırda ölkədə həcmi artan problemli kreditlərlə kredit faizlərinin yüksək olması arasında çox ciddi bağlılıq var. Problemli kreditlərin artması bank itkilərinin artması deməkdir. «Banklar həmin itkiləri öz kapitalı, mənfəəti hesabına qarşılayır. Buna görə də qiymət siyasəti elə formalaşdırılmalıdır ki, bu itkilərin fonunda mənfəətli fəaliyyət göstərilsin. Digər tərəfdən, problemli kreditlərin artması bankların bu vəsaitləri toplamaq üçün inzibati xərclərini artırır. Vəsaitlərin toplanması üçün əlavə işçilər götürülməli, departament, şöbə və bölmələr yaradılmalıdır. Məhkəmə, rabitə və digər bu kimi xərclər artır. Həmçinin MB-nin normativlərinə əsasən, gecikən kreditlərə görə şərtlərə uyğun olaraq, əlavə ehtiyatlar yaradılmalıdır. Ehtiyatlar isə mənfəət və kapital hesabına yaradılır. Sözsüz ki, problemli kreditlərin artması kredit faizlərinin artması effektini yaradır».

Y.Abdullayev kredit faizlərinin nə vaxt azalacağı ilə bağlı qeyd etdi ki, düşmə tendensiyası mövcuddur və buna əsasən müsbət proqnoz

*Hazırda ölkədə həcmi artan problemli kreditlərlə kredit faizlərinin yüksək olması arasında çox ciddi bağlılıq var*

Y.Abdullayevin sözlərinə görə, mikrobiznes kreditləri ilk olaraq bank olmayan kredit təşkilatları tərəfindən təklif olunmağa başlamışdır. Lakin sonradan bu biznesin özünü doğrultması bankların da bu istiqamət üzrə fəaliyyətlərinə start verilməsi ilə nəticələndi. Eyni zamanda, bank olmayan kredit təşkilatları da əvvəllər təklif etmədikləri məhsulu, istehlak kreditlərini satmağa başladılar. Hazırda mikrobiznes kreditləri verən banklar mövcuddur: «Mikrobiznes krediti və istehlak kreditləri tam fərqli kreditlərdir. İstehlak krediti, adından göründüyü kimi, istehlak məqsədilə verilir. Avtomobil, məişət avadanlığı və digər avadanlığın alınması, təmir, təhsil məqsədilə verilən kreditlər bu sıraya daxildir. Mikrobiznes kreditləri isə biznes təyinatlıdır. Məbləğinin kiçik olmasına görə bəzən bu məhsulu istehlak kreditləri ilə eyni kateqoriyaya aid edirlər. Lakin hər ikisinin adından göründüyü kimi, təyinatlar fərqlidir. Həmçinin bazarda daha çox istehlak krediti kimi təklif olunan nağd pul kreditlə-

vermək olar: «Düşünürəm ki, 2015-ci ildən bank sektorunda vəziyyət nisbətən dəyişəcəkdir. MB tərəfindən müəyyən olunan minimum kapital tələbinin səviyyəsi artırılıb və banklar qarşısında bu tələbə əməl etmək üçün qoyulan vaxta az qalıb. Düzdür, bazarın aparıcı bankları, hərəkətverici qüvvələri bu tələbi qarşılayıblar. Buna baxmayaraq, onların strateji planlaşmasında müəyyən dəyişiklik edilməsi istisna olunmur. MB bu ilin əvvəlindən başlayaraq ev təsərrüfatlarına verilən kreditlərin, yəni istehlak kreditlərinin məhdudlaşdırılması ilə bağlı fəaliyyətlərə start verib. Görülən işlər öz nəticəsini qısa müddətdə göstərə bilməz. Bunun üçün müəyyən müddət tələb olunur. Əlavə olaraq risklərin idarə olunması ilə bağlı bankların qarşısına qoyulan tələblər də sərtləşdirilib. Bütün bunları nəzərə alsaq, 2015-ci ildə bank sektorunda baş verəcək dəyişikliklərin fonunda kredit faizlərinin aşağı düşməsi real görünür».

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 noyabr - «5», «(5)» və «6».

20 noyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyanname verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | XRVXD | «MİLK-PRO» MMC | Bakı şəhəri Xətai rayonu | Süd emalı məntəqəsi |
| 2 | XRVXD | «BAKI ŞƏRAB-2» ASC | Bakı şəhəri Nərimanov rayonu | Şərab istehsalı obyekti və mağaza |
| 3 | XRVXD | «Hidrotexniki və nəqliyyat qurğularının layihələndirilməsi üzrə hidrotransproyekt elmi-tədqiqat mərkəzi» MMC | Bakı şəhəri Yasamal rayonu | |
| 4 | BŞVD | «BAKELEKTROMAŞIN» ASC | Bakı şəhəri Xəzər rayonu | İstehsal zavodu |
| 5 | BŞVD | «AVANT» FİRMASI | Bakı şəhəri Suraxanı rayonu | Ofis |
| 6 | BŞVD | «M&M» MMC | Bakı şəhəri Binəqədi rayonu | «EMPİRE» mehmanxanası |
| 7 | BŞVD | «AZİNTERPARTLAYIŞ-X» MMC | Bakı şəhəri Binəqədi rayonu | Ofis |
| 8 | BŞVD | Cəbrayılov Vasif Yusif oğlu | Bakı şəhəri Suraxanı rayonu | Hədiyyə dükanı |
| 9 | BŞVD | Qorçuyev Rəşad Nəriman oğlu | Bakı şəhəri Nərimanov rayonu | «RABBANİ» dini malların satışı |
| 10 | BŞVD | Fərmanov Namiq Azər oğlu | Bakı şəhəri Səbail rayonu | «Müslüm shop» dini malların satışı |
| 11 | BŞVD | «BUDAD FOOD COMPANY» MMC | Bakı şəhəri Binəqədi rayonu | İstehsalat obyekti |
| 12 | BŞVD | «TEXNOSERV AZ» MMC | Bakı şəhəri Səbail rayonu | Ofis |
| 13 | BŞVD | «DALĞA» istehsal-kommersiya firması | Bakı şəhəri Xətai rayonu | Yeməkxana |
| 14 | BŞVD | İbrahimov Müzəffər İbrahim oğlu | Bakı şəhəri Binəqədi rayonu | Mağaza |
| 15 | BŞVD | Xəlilova Xədicə Mollatahir qızı | Bakı şəhəri Yasamal rayonu | Mağaza |
| 16 | BŞVD | «AMA» MMC | Bakı şəhəri Binəqədi rayonu | Ofis |
| 17 | BŞVD | Səfərov Əlövsət Ənvər oğlu | Bakı şəhəri Yasamal rayonu | «Tərs lalə» kafesi |
| 18 | BŞVD | Kazımova Əminə Mürsəl qızı | Bakı şəhəri Binəqədi rayonu | «COCO» qadın çay klubu |
| 19 | BŞVD | Məcidov Emin Fəxrəddin oğlu | Bakı şəhəri Yasamal rayonu | Mağaza |
| 20 | BŞVD | Uylukçu Hadi Mustafa | Bakı şəhəri Sabunçu rayonu | Yeməkxana |
| 21 | BŞVD | Rüstəmov Tural Rahil oğlu | Bakı şəhəri Nəsimi rayonu | Mağaza |
| 22 | 2 ƏVD | «AZƏRBAYCAN MƏİŞƏT MALLARI» ASC | Sumqayıt şəhəri | Kimyəvi məhsullar istehsalı |
| 23 | 2 ƏVD | «ONİKS» FİRMASI | Sumqayıt şəhəri | İcarə obyekti |
| 24 | 2 ƏVD | «AZƏR PAK» MMC | Abşeron rayonu | Sabun və yuyucu tozların istehsalı |
| 25 | 2 ƏVD | «QRANİT-1» KİÇİK MÜƏSSİSƏSİ | Abşeron rayonu | Daş karxanası |
| 26 | 6 ƏVİ | Tağıyev Allahverdi Davud oğlu | Lənkəran rayonu | «Ruslan» şadlıq sarayı |
| 27 | 6 ƏVİ | «ELMAR-96» FƏRDİ MÜƏSSİSƏSİ | Cəlilabad rayonu | Yanacaqdoldurma məntəqəsi |
| 28 | 8 ƏVİ | «DƏRGAH» FİRMASI | Ağcabədi rayonu | Anbar |
| 29 | 13 ƏVİ | «QAX-İSTEHSALAT» ASC | Qax rayonu | İcarə obyekti |
| 30 | 14 ƏVİ | «QAZAX-KONSERV» ASC | Qazax rayonu | Qazax konserv zavodu |



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

## Audit

# Ənənəvi (köhnə) hesablar planının tətbiqinin aparılan auditə neqativ təsiri

Hörmətli oxucular, qəzetimizin əvvəlki saylarındakı yazılarda qeyd edildiyi kimi, yeni hesablar planına baxış edərkən köhnə (ənənəvi) hesablar planında görünən qüsurlu məqamlardan biri də mükəmməl informasiyaverici hesabların az olması və mühasibat və vergi uçotunun fərqliliyinə toxunulmamasıdır. Bu, əsasən gəlirlərin, xərclərin və mənfəətin uçotu ilə əlaqəli olan hesablardan istifadə ilə bağlıdır.

Uçotunu köhnə hesablar planı əsasında vergi məqsədləri üçün quran müəssisələrdə gəlirdən çıxılmayan xərcləri 86, 87 və ya 88 №-li hesabda (hesabın debetində) uçota alırlar. 86, 87 və ya 88 №-li hesablarda və ya həmin hesabların hər hansı birində vəsait (qalıq) olduğu halda, vergi məqsədli gəlirdən çıxılmayan xərclər həmin hesablardakı məbləğlərin azalması kimi, yəni xərclər kapital ehtiyatlarının və ya bölüşdürülməmiş mənfəətin azalmasına yönəldilmiş kimi qəbul olunur. 86, 87 və 88 №-li hesablarda vəsait (qalıq) olmadığı halda isə gəlirdən çıxılmayan xərcləri birbaşa bu hesabların və ya bu hesablardan hər hansı birinin debetinə müxabirləşdirməklə silirlər. Ümumiyyətlə, bir çox müəssisələrdə 86, 87 və 88 №-li hesablarda (hər hansı fond hesablarında) vəsaititn olub olmamasından asılı olmayaraq, vergitutma məqsədləri üçün nəzərdə tutulan gəlirdən çıxılmayan xərcləri həmin hesabların debetində əks etdirirlər. Bu cür qeydlər vergitutmaya istinadən aparıldığına görə, vergi uçotu balansının tərtib edilməsində güzgün hesab etmək olar, lakin mühasibat uçotu məqsədləri üçün düzgün yanaşma hesab edilməməlidir.

Əgər hər hansı bir xərc müəssisənin uçot siyasətinə uyğun olaraq təyinatı üzrə çəkilməsi nəzərdə tutulan (planlaşdırılan) xərcdirsə, vergitutmadan asılı olmayaraq, tanındığı halda xərc hesablarında uçota alınmalıdır və hər hansı kapital ehtiyatlarının azalmasına yönəldilməməlidir. Kapital ehtiyatları yalnız həmin ehtiyatın istifadəsi nəzərdə tutulan istiqamətdə çəkilən xərclər üzrə azaldıla bilər.

Uçotunu köhnə hesablar planı əsasında vergi məqsədləri üçün quran müəssisələrdə aparılan audit zamanı çətinlik yaradan məsələ mənfəət və zərər haqqında hesabatda ümumi mənfəətin və xalis mənfəətin məbləğinin düzgün müəyyənləşdirilməsidir.

Bəzi müəssisələrdə yeni standartlara uyğun olaraq maliyyə hesabatları hazırlanarkən mənfəət və zərər haqqında hesabatda gəlirlər, xərclər və ümumi mənfəətin məbləğini səhv olaraq vergi bəyannaməsindəki müvafiq göstəricilərlə eyni göstərməyə çalışırlar. Sonra da 86, 87 və ya 88 №-li hesabların debetində uçota alınan gəlidən çıxılmayan xərcləri kapitalda dəyişikliklər haqqında hesabatda kapital ehtiyatlarının istifadəsi kimi əks etdirirlər. Bu, dürüst yanaşma deyildir.

Əslində, mənfəət və zərər haqqında hesabatın xərclər hissəsinin tərtib olunmasında 86, 87 və ya 88 №-li hesabların debet dövriyyələrini nəzərə almaq lazımdır və belə olan halda, kapitalda dəyişikliklər haqqında hesabatda kapital ehtiyatlarının istifadə olunması kimi qeydləri əks etdirmək lazım gəlmir. Məsələn, 86, 87 və ya 88 №-li hesabların debetində uçota alınaraq toplanmış normadan artıq ezamiyyə xərcləri, yemək xərcləri, yardımlar, maliyyə sanksiyaları və cərimələr, yoxlamalar nəticəsində əlavə hesablanmış vergilər və sosial sığorta haqları, inzibati cərimələr və digər vergi məqsədli xərc hesab edilməyən məsrəflər mühasibat məqsədləri üçün xərc kimi hesab edilərək mənfəət və zərər haqqında hesabatın xərcləri əks etdirilən göstəricilərinə əlavə edilməlidir. Bu halda hesabatda mənfəətin məbləği azalacaqdır və hesabatda müəyyənləşən mənfəətin məbləği vergi orqanına təqdim olunan mənfəət vergisi bəyannaməsindəki mənfəətin məbləğindən az olması ilə fərqlənəcəkdir və bu, belə də olmalıdır. Yalnız 86, 87 və ya 88 №-li hesabların adı ilə bağlı, həmçinin uçot siyasətinə uyğun olaraq təyin edilən istiqamətlərdə çəkilən xərclər həmin hesabların debetində əks etdirilməklə kapitalda dəyişikliklər haqqında hesabatda nəzərə alına bilər.

Köhnə hesablar planında vergi uçotu ilə mühasibat uçotu arasındakı fərqi nəzərə ala biləcək nə hesab, nə də hər hansı yanaşma (uçot qeydi) nəzərdə tutulmuşdur. Yeni hesablar planında isə bu, təxirə salınmış vergilər kimi nəzərə alınmışdır.

beynəlxalq panoram

# Çexiyada 2015-ci ildən vergini internet vasitəsilə ödəmək mümkün olacaq



Maliyyə nazirinin müavini Simona Qornoxova bildirib ki, gələn ildən maliyyə idarəsi vergiləri internet vasitəsilə ödəməyə icazə verəcək. O, izah edib ki, elektron vergi bəyannaməsi səhifəsinin aşağısında olan düyməni basdıqda, hər hansı bir sonrakı məlumatı daxil etmədən vergilərin ödənilməsi mümkün olan ödəniş portalına keçəcəksiniz. Çexiyanın beş maliyyə idarəsində vergiləri bank kartı vasitəsilə ödəmək mümkün olacaq.

Qornoxovanın sözlərinə görə, dövlət nağdsız hesablaşmalar vasitəsilə nağd pul dövriyyəsini məhdudlaşdırmaq və ya heç olmasa, nəzarətə götürmək istəyir. 2016-ci ildə yaradılacaq gəlirlərin elektron qeydiyyatı sistemi buna kömək edəcək. Bu yenilik Çexiyanın kölgə iqtisadiyyatını aşkarlamağa imkan yaradacaq. Kölgə iqtisadiyyat isə ÜDM-in 16-20%-ni təşkil edir. Bununla dövlət hər il külli məbləğdə vergi ödənişlərini itirir. Çexiyanın maliyyə naziri bir qədər əvvəl bildirmişdi ki, gəlirlərin elektron qeydiyyatı sayəsində ƏDV tarifi aşağı salına bilər. Ötən il Çexiyanın maliyyə idarələrində ümumi məbləği 876 milyard kron olan (1 kron = 0.5AZN) 15,1 milyard nağdsız hesablaşma aparılmışdır.

# Macarıstanda internetdən istifadəyə görə vergi tətbiq oluna bilər

*İnternetdən istifadəyə görə vergi tətbiqi təklif olunan yeni qanun layihəsi yığılan verginin internet trafikinin artırılmasına mütənasib olmasını nəzərdə tutur.*

Vergitutma bazası qiqabayt hesabı ilə internet-trafik olacaq. Hər istifadə edilən qiqabaytın vergi dərəcəsi 150 forint ($ 0,6) təşkil edəcək. Parlament qanun layihəsini dəstəkləyərsə, yeni qanun internet provayderlərini vergi həcmini hesablamağa və hər ayın 20-dək ödəməyə məcbur edəcək.

Macarıstan hökuməti yeni verginin tətbiqi nəticəsində dövlət büdcəsinə əlavə daxilolmaları 20 milyard forint ($80 milyon) məbləğində qiymətləndirir.

# Belarusda «tüfeylilik» vergisi bəyənilmişdir

*Daxili İşlər Nazirliyi mövcud qanunvericiliyə müəyyən müddət ərzində bilərəkdən işləməyənlərin məsuliyyətə cəlb olunmasını, o cümlədən məcburi olaraq işə düzəldilməsini nəzərdə tutan normanın daxil olunmasını təklif etmiş, təşəbbüs ölkə Prezidenti tərəfindən bəyənilmişdir.*

Bu təşəbbüsü ölkənin baş naziri irəli sürmüş, Maliyyə Nazirliyi isə dərhal müvafiq qərar layihəsini hazırlamışdı.

İşsizlərin pensiya yaşının artırılması, əməyə məcburiyyət «işdən boyun qaçıranlara» qarşı tətbiq olunacaq yeganə tədbirlər deyil.

Baş nazirin müavini əmək pensiyalarının təyin olunması üçün minimum əmək stajının 10 ildən 15 ilədək artırılmasını, pensiyaların məbləği hesablanarkən son 20 ildəki stajın əsas kimi götürülməsini, «tüfeylilərin» pensiya yaşı həddinin artırılmasını təklif etmişdir.

Onun təklifinə əsasən, tələb edilən ümumi və sığorta stajı kifayət etmədikdə sosial pensiyanın alınması üçün müraciət yaşı 5 il artırılaraq, qadınlar üçün 60, kişilər üçün 65 müəyyənləşdirilməlidir.

Hökumət uzunmüddətli iş stajının təyin edilən pensiyanın məbləğinə təsirinin gücləndirilməsini və bunun, ilk növbədə, aşağı ödənişli kateqoriyadan olan işçilərə şamil olunmasını təklif edir.



Xarici ölkələrin təcrübəsi

# Fransa Respublikasının vergi sistemi: *gəlir vergisi*

***Güzəştlər:*** 2013-cü il üzrə bir ailənin gəlir vergisindən fərdi çıxılmalar və digər vergi güzəştləri şəklində çıxa biləcəyi maksimum məbləğ illik 10.000 avro müəyyən edilmişdir. 2012-ci ildə bu göstərici 18.000 avro + ümumi xalis vergi öhdəliyinin 4%-i olmuşdur.

Ailə vəziyyətindən asılı olaraq vergi ödəyicisinin məcmu gəlirindən bir sıra çıxılmalar hesablana bilər.

*Gəlirdən çıxılmalar:* 2017-ci il dekabrın 31-dək Fransa dənizarxası departamentlərinə qoyulmuş birbaşa investisiyaların tam həcmi vergi ödəyicisinin məcmu gəlirindən çıxıla bilər;

1 yanvar 2013-31 dekabr 2016-cı il arasında yeni yaşayış binasına qoyulmuş investisiya həmin binanın ən azı 9 il ərzində icarəyə götürülməsini nəzərdə tutursa, qoyulmuş investisiyanın 18%-nin (dənizarxası departamentlərdə 29%) 9 il müddətinə gəlirdən çıxılmasına yol verilir;

Avropa Birliyi üzvlərinin üzvlük haqları müəyyən hədlər daxilində gəlirdən çıxılır.

Xalq pensiya əmanəti planına (PERP) üzv şəxslərin ödədikləri sığorta ödənişləri (premium) gəlirdən çıxıla bilər. Bu çıxılma, adətən, əvvəlki ildə peşə fəaliyyəti üzrə gəlirin 10%-i və ya orta illik sosial sığortanın maksimum məbləğinin 8 misli həcmində məhdudlaşdırılır.

*Fərdi güzəştlər:* Vergi ödəyicisinin gəlirindən aşağıdakı xərcləri çıxmaq hüququ vardır:

- vergi ödəyicisinə bir sıra hallar və hədlər nəzərə alınmaqla hüquqi öhdəlik və ya məhkəmənin hökmü üzrə əvvəlki həyat yoldaşına ödədiyi alimentlərin gəlirdən çıxılması;
- əgər ailənin evlənmiş övladının gəlirləri hələ də ailənin ümumi bəyannaməsində əks olunursa, vergi ödəyicisinə hər belə asılı şəxsə görə 5698 avro gəlirdən çıxılma;
- əlil və ya yaşı 65-dən yuxarı olan vergi ödəyicisinin illik gəliri 14510 avrodan artıq deyilsə, bu gəlirdən 2312 avro çıxılma.

Vergi ödəyicisinin əsas yaşayış yeri olan evində uzunmüddətli inkişaf və enerjiyə qənaəti nəzərdə tutan avadanlığın alınmasına çəkilmiş xərclərin (1 yanvar 2005-31 dekabr 2015-ci il) illik çıxılma həddi avadanlığın növündən asılı olaraq 10%, 11%, 15%, 17%, 26%, 32% olmaqla maksimum 8000 avro (evli cütlüklər üçün bunun 2 misli) müəyyən edilmişdir.

Aİ-də yerləşən dövlət və ya özəl qeyri-hökumət təşkilatlarına, siyasi partiyalara ödənilmiş hədiyyələrin 66%-i, vergi ödəyicisinin ümumi vergi öhdəliyinin 20%-dək gəlirdən çıxılır.

Uşaqları orta və ali təhsil müəssisələrində təhsil alan valideynlərə təhsil müəssisəsinin səviyyəsindən asılı olaraq hər uşağa görə 61-183 avro məbləğində çıxılma tətbiq edilə bilər.

***Zərərlər:*** Bir sıra ölkələrdən fərqli olaraq, Fransada bir gəlir növü üzrə yaranmış zərər digər gəlir növü üzrə kompensasiya edilə bilər. Digər gəlir hesabına silinə bilməyən zərərin artıq hissəsi 6 il ərzində növbəti dövrə keçirilə bilər.

Qeyri-sahibkarlıq fəaliyyətindən, peşə fəaliyyəti və kənd təsərrüfatından yaranan zərər müəyyən şərtlər daxilində yalnız eyni növ fəaliyyətdən gəlir hesabına kompensasiya edilə bilər. Daşınmaz əmlakdan yaranan zərər bir sıra hallar nəzərə alınmaqla 10700 avro məbləğinədək vergi ödəyicisinin məcmu gəliri hesabına silinə bilər. Sahibkarlıq fəaliyyəti dayandırılarkən daşınmaz əmlakın sahibinin dəyişdirilməsi ilə bağlı zərər heç bir digər gəlir növü üzrə silinə bilməz. Eyni qayda qiymətli kağızlara da aid edilir, lakin bəzi şərtlərlə bu cür zərər 10 il müddətinə növbəti dövrə keçirilə bilər.

***Ödəmə mənbəyində tutulan vergilər:*** Fransada muzdlu işə görə əməkhaqqından ödəmə mənbəyində vergi tutulmur. Muzdlu işçilər aylıq əməkhaqqından sosial vergilər (CSG və CRDS) və sosial sığorta ödənişləri çıxılmaqla fərqi alırlar.

Dividenddən ödəmə mənbəyində 21%, faizlərdən 24% vergi tutulur. Hər iki növ gəlirdən tutulmuş vergi fiziki şəxsin ümumi gəlir vergisi öhdəliyi hesablanarkən nəzərə alınır. Ödəmə mənbəyində tutulmuş vergilər gəlir vergisi öhdəliyi üzrə ödənilməli olan məbləğdən çox olarsa, artıq məbləğ geri qaytarılır.

***Vergi dövrü:*** Vergi dövrü 12 aydır və adətən, təqvim ilidir. Lakin fərdi sahibkarlar biznes gəlirləri barədə bəyannaməni özləri tərəfindən seçilən hesabat ili üzrə təqdim edə bilərlər.

***Vergi bəyannamələrinin təqdimedilmə müddəti:*** Gəlir vergisi əvvəlki il üzrə əldə edilmiş gəlirdən tutulur. Gəlir vergisi ödəyicisi olan rezident fiziki şəxslər vergi bəyannaməsini martın 1-dək, biznes gəlirləri olan fiziki şəxslər gəlirləri barədə bəyannaməni martın 31-dək təqdim etməlidirlər.

Gəlir vergisi ödəyicinin vergi bəyannaməsi və vergi orqanı tərəfindən göndərilmiş qiymətləndirməyə uyğun hesablanır. Lakin kiçik biznes nümayəndələri öz gəlirləri üzrə bəyannamə təqdim etməsələr, qiymətləndirmə vergi orqanının mülahizəsinə əsasən ola bilər. Bütün avans ödənişləri və ödəmə mənbəyində tutulmuş vergilər yekun vergi öhdəliyi hesablanarkən nəzərə alınır.




Vergi orqanında bəzi vergi ödəyicilərinin təqdim etdikləri vergi bəyannamələrinin real vəziyyəti əks etdirməməsi şübhəsi olduqda şərti qiymətləndirmə tətbiq edilə bilər. Bu zaman vergi ödəyicisinin xidmətçiləri, özəl təyyarələri, yaxtaları, lüks avtomobilləri, atları, qolf klublara üzvlüyü və ov hüquqları kimi xərcləri nəzərə alınmaqla vergi hesablanır.

***Verginin ödənilmə müddəti:*** Gəlir vergisi cari il ərzində qabaqcadan qiymətləndirmə şəklində toplanır. Vergi ödəyicisi cari ildə gözlənilən öhdəlik üzrə avans ödənişləri etməlidir. Bu ödəniş əvvəlki vergi ilində hesablanmış yekun verginin 1/3-i həcmində iki ödəniş şəklində ödənilir. Yəni 2012-ci ildə ödənilən avans ödənişi 2010-cu ilin gəlirləri üzrə 2011-ci ildə hesablanmış yekun vergi öhdəliyinin 1/3-i həcmində olur. Avans ödənişləri fevralın və mayın 15-dək ödənilməlidir. Əgər vergi orqanından əlavə vergi ödəmə bildirişi gələrsə, balans ödənişi sentyabr və oktyabrda ödənilir. Vergi ödəyicisi aylıq ödənişlər etmək metodunu da seçə bilər. Bu zaman balans ödənişləri noyabr və dekabr aylarında aparılır.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:**
1.Təbiətdə müxtəlif rənglərinə rast gəlinən qiymətli mineral; 2.Çevrənin mərkəzindən keçib onu iki bərabər hissəyə bölən düz xətt; 3.Hansısa bir ideyanın, biliyin tərəfdarı; 4.ABŞ-ın ən böyük şəhərlərindən biri; 5.Tasmaniya yaxınlığında ada; 6.Çin mafiya qruplaşması; 9.XIII əsrdə yaranan hind-avropa dili ailəsinə daxil dil. Pakistanın rəsmi dilidir; 13.Yemək üçün istifadə olunan qab; 15.Bəstəkara, dirijora və ya başqa görkəmli incəsənət xadiminə hörmət üçün verilən ad; 16.Kiçik Asiyada antik şəhər; 17.Şəhər kənarında və kurortlarda restoranları, qumarxanaları olan əyləncə yeri; 18.Bir-birindən çeşidli intervalda yerləşən, eyni zaman ərzində ən azı üç həmahəng səslənən tonun birləşməsi; 20.Bir və ya bir neçə teoremi sübut etmək üçün lazım olan köməkçi teorem; 21.Səhləbkimilər fəsiləsinə aid bitki cinsi.

**Soldan sağa:**
1.Quba və Xaçmaz rayonları ərazisindən axan çay; 5.1919-cu ildə Versal müqaviləsi əsasında yaradılmış əmək münasibətlərini tənzim edən qurum; 7.Türkiyədə oriyental tipli xalq musiqisi janrı; 8.İtalyan aktrisasının soyadı. «İnadkarın ram edilməsi» filminin baş qəhrəmanlarından biri; 10.Bir idarə və ya müəssisənin tapşırığı və ya vəkaləti ilə iş görən adam, müvəkkil; 11.ABŞ-ın 20-ci prezidentinin soyadı; 12.İtaliyada kabus şəhər; 14.Mövsümi meyvə; 19.Dalmazkimilər fəsiləsinin bədrənc cinsindən olan çoxillik ot bitkisi (ballınanı, limonotu adları ilə də tanınır); 21.Müəllifin bilavasitə gördüyü, şahidi olduğu real faktlardan, hadisələrdən, adamlardan bəhs olunan kiçik ədəbi əsər; 22.Həndəsi fiqur; 23.Böyük musiqi-vokal əsərinin (opera, operetta, oratoriya) mətni; 24.1997-2001-ci illərdə Azərbaycanda fəaliyyət göstərən televiziya kanalı; 25.Müəyyən sözü tapmaq üçün üfüqi və şaquli kvadratlara bölünmüş fiquru hərflərlə doldurmaqdan ibarət intellektual oyun.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Baksan; 2.Kurator; 3.Nüans; 4.Asetat; 5.Fondü; 6.Lirika; 9.Yava; 13.Fayl; 15.Opossum; 16.Sparta; 17.Stress; 18.Marazm; 20.İnter; 21.Fərar.
**Soldan sağa:** 1.Bakenbard; 5.Fel; 7.Karfagen; 8.Anar; 10.Aytos; 11.Atatürk; 12.Şrift; 14.Qazon; 19.Pripyat; 21.Flora *(Kərimova)*; 22.Ritm; 23.Nebraska; 24.Akr; 25.Ekstremum.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

idman

# «Bayrağımız - qürur mənbəyimizdir!» devizi altında veloyürüş

*9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə «Bayrağımız - qürur mənbəyimizdir!» devizi altında veloyürüş keçirilib.*



Yürüşdə Azərbaycanın müxtəlif yaş qrupları üzrə yığma komandalarının üzvləri ilə yanaşı, 200-dən artıq həvəskar velosipedçi iştirak edib. Onların arasında «Bakı-2015» ilk Avropa Oyunları Əməliyyat Komitəsinin nümayəndələri də olub.

İştirakçılar Bayraq Meydanı - Azneft Meydanı, Neftçilər prospekti - Dəniz limanı - Heydər Əliyev Mərkəzi və əks istiqamətdə hərəkət ediblər. 18 km-lik yürüş paytaxt sakinləri tərəfindən böyük maraqla qarşılanıb. Veloyürüş başladığı yerdə - Dövlət Bayrağı Meydanında başa çatıb.

Qeyd edək ki, birliyimizi əks etdirən bu yürüş artıq ənənə halını alıb və hər il Dövlət Bayrağı Günündə keçirilir.

# Dağ velosipedi üzrə ekstremal yarış

***Azərbaycanda ilk dəfə dağ velosipedinin (MTB) «downhill» (təpədən üzüaşağı) növü üzrə ekstremal idman yarışı keçirilib.***

«Red Bull Local Hero» adlanan və Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən dəstəklənən yarışda həvəskar velosipedçilərlə yanaşı, peşəkarlar da mübarizə aparıblar. Yarışın fəxri qonağı MTB downhill-in dünyada tanınmış siması, bu növ üzrə bir çox nüfuzlu turnirlərin qalibi, slovakiyalı Filipp Polk olub. Məhz o, 950 metrlik tras boyunca birinci hərəkət edib və yarış iştirakçılarına öz bacarığını göstərib. Sonra mübarizəyə start verilib. Yarışda Kanada, Rusiya və Gürcüstandan olan idmançılar müsabiqədənkənar iştirak ediblər. Ümumilikdə 30-a yaxın idmançı yüksəklikdən üzüaşağı, manеələrlə dolu torpaq yolla hərəkət ediblər. Ən yaxşı nəticəni Azərbaycan yığmasının və «Synergy Baku» kontinental komandasının üzvü Aqşin İsmayılov göstərib. Qalibdən 2 saniyə geri qalan yığma komandamızın digər üzvü Orxan Məmmədov ikinci, Qusardan olan həvəskar velosipedçi Murad Babayev isə üçüncü olublar.

# Gənc velosipedçimiz mötəbər turnirdə 3-cü oldu

***Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası - «Synergy Baku» Çində keçirilən sayca 5-ci «Tour of Taihu Lake» yürüşündə çıxışını başa vurub.***



Xatırladaq ki, on yeddi kontinental və 3 milli komandanın iştirak etdiyi 9 mərhələli yarış Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyasına malik idi. Azərbaycan Velisiped İdmanı Federasiyasının yaydığı məlumata görə, komanda hesabında «Synergy Baku» 20 kollektiv arasında 4-cü yeri tutub. Komandamız çempion olmuş Hollandiya millisinə cəmi 10 saniyə uduzub. Şəxsi göstəricilərə gəlincə, yekun sıralanmada 2 velosipedçimiz ilk 20-liyə düşüb. Bunlar 12-ci yeri tutan Samir Cəbrayılov və 19-cu olan Elçin Əsədovdur. Sevindirici əsas məqam isə yarışın 23 yaşadək velosipedçiləri arasında Samir Cəbrayılovun fəxri kürsüyə qalxmasıdır. Azərbaycanın U-23 milli komandasının üzvü çempiondan cəmi 4 saniyə geri qalmaqla 3-cü yeri tutub və xüsusi mükafata layiq görülüb. Qeyd edək ki, komandamız noyabrın 14-dən 16-dək Çində start götürəcək daha bir yarışda mübarizə aparacaq.

# Azərbaycan güləşçilərindən növbəti uğur

*Moskvada keçirilən güləş üzrə Avropa Millətlər Kuboku turnirinə yekun vurulub. Azərbaycan Güləş Federasiyası xəbər verir ki, komanda yarışı xarakterli turnirdə Azərbaycanla yanaşı, Rusiya, Türkiyə, Ukrayna, Belarus, Macarıstan, Bolqarıstan, İsveç yığmaları da iştirak ediblər.*



Reqlamentə əsasən, komandalar iki yarımqrupda yarışıblar. Püşkatmanın nəticələrinə əsasən, sərbəst güləş üzrə Azərbaycan yığması Türkiyə ilə eyni yarımqrupda mübarizə aparıb. Güləşçilərimiz 6:2 hesablı qələbə qazanaraq finala yüksəliblər. Digər yarımqrupda Rusiya, Belarus və Ukrayna güləşçiləri yarışıblar. Komandamız həlledici görüşdə Rusiya güləşçiləri ilə qarşılaşıb. Sərbəst güləşçilərimiz turniri ikinci sırada tamamlayaraq Avropa Millətlər Kubokunun gümüş medalına sahib olublar.

Yunan-Roma güləşçilərimiz isə Rusiya və Bolqarıstanla eyni yarımqrupda mübarizə aparıblar. Bolqarıstan komandası ilə gərgin keçən görüş 4:4 hesabı ilə başa çatıb. Daha keyfiyyətli fəndlərə və xal hesabına görə, qələbə Azərbaycan yığmasına verilib. Komandamız qrupda növbəti görüşünü Rusiya yığmasına qarşı keçirib və məğlub olub. Türkiyə, Ukrayna və Macarıstan güləşçiləri isə digər yarımqrupda mübarizə aparıblar. Yunan-Roma güləşçilərimiz öz yarımqrupunu ikinci sırada tamamlayıb. Bu nəticə ilə güləşçilərimiz Macarıstan komandası ilə bürünc medal uğrunda görüşə çıxıblar. Rəqibini 6:2 hesabı ilə məğlub edən güləşçilərimiz Avropa Millətlər Kuboku turnirini üçüncü pillədə başa vurublar.

Xatırladaq ki, turnirin ilk günü qadın güləşçilər mübarizə aparıblar. Püşkatmanın nəticələrinə əsasən, Azərbaycan güləşçiləri Ukrayna və Bolqarıstanla eyni yarımqrupda da mübarizə aparıb. Qadın güləşçilərimiz hər iki görüşü 5:3 hesablı qələbə ilə başa vuraraq yarımqrupu ilk sırada tamamlayıblar. Digər yarımqrupda Rusiya güləşçiləri birinci olub. Final görüşündə Rusiya millisinə məğlub olan Azərbaycan yığması Avropa Millətlər Kubokunu ikinci sırada tamamlayaraq turnirin gümüş mükafatına sahib olublar.

## Şahmat üzrə beynəlxalq xatirə turniri başa çatdı

Azərbaycanın tanınmış şahmat məşqçisi, Respublika Şahmat Mərkəzinin ilk direktoru Fuad Cəfərovun xatirəsinə həsr olunan klassik şahmat üzrə beynəlxalq turnirə noyabrın 9-da yekun vurulub.

Respublika Şahmat Mərkəzində İsveçrə sistemi üzrə keçirilən turnirdə Azərbaycan, Rusiya və Gürcüstandan olan 30 zəka sahibi birincilik uğrunda mübarizə aparıb. Beynəlxalq reytinqli şahmatçıların mübarizə apardığı turnir 7 turdan ibarət olub. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda 5,5 xal toplayan Rəşad Zeynallı qalib adını qazanıb. Oğuz Abışlı ikinci, Orxan Talışzadə isə üçüncü pillədə qərarlaşıblar.

Fəxri kürsüdə yer alan şahmatçılara kubok və pul mükafatları təqdim olunub, həmçinin gənc şahmatçılardan Nail Bəşirli, veteranlardan isə Konstantin Kananenko da kubok və pul mükafatları ilə təltif edilib. Yarışın ən kiçik yaşlı şahmatçısı Vüqar Manafova xatirə hədiyyəsi verilib.

Turnir çərçivəsində, həmçinin, güclü idmançıların iştirakı ilə rapid üzrə pley-off yarışı da təşkil olunub. Bu turnirdə 5 beynəlxalq qrossmeyster və 3 idman ustası mübarizə aparıb. Yarışda beynəlxalq qrossmeyster Ülvi Bacarani qalib adını qazanıb. Beynəlxalq qrossmeysterlər Vüqar Rəsulov ikinci, Nicat Məmmədov isə üçüncü pillədə qərarlaşıblar.

## Avropa birinciliyində altı medal

Boks üzrə Azərbaycan yığması Rusiyanın Anapa şəhərində keçirilən yeniyetmələr arasında Avropa birinciliyində 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb. Anapaya 13 nəfərlə yollanan yığmamız ümumi komanda hesabında Rusiya və Ukraynadan sonra üçüncü yeri tutub.

Azərbaycan Boks Federasiyasından bildiriblər ki, boksçumuz Ruslan Rüstəmov (46 kq) ukraynalı Oleq Çulyaçetyev üzərində qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bəxtiyar Qazıbəyov (57 kq) isə yalnız həlledici görüşdə Rusiya boksçusu Anatoli Jirnova uduzaraq ikinci yeri tutub. Pərviz Quliyev (63 kq), Rasim Çobanlı (70 kq), Hacı Dilbazov (75 kq) və Məhəmməd Abdullayev (80 kq-dan yuxarı) üçüncü yerlə kifayətləniblər. Avropa birinciliyində 33 ölkədən 254 boksçu mübarizə aparıb.

mozaika

sağlam həyat tərzi

## Kabelsiz bağlantı sistemi ən çox uşaqlara mənfi təsir edir

*İnternet olan hər evdə kabelsiz bağlantı (Wi-Fi) standart halını alıb. Wi-Fi kəşf olunanda çoxlarımız bunu sevinclə qarşılasaq da, alimlərin araşdırmaları göstərdi ki, simsiz rabitə vasitəsinin üstün tərəfləri qədər, cana ziyanı da varmış.*

Alimlərin hesablamalarına görə, 3 yaşından 16 yaşına qədər uşaqlar əvvəlcə uşaq bağçasında, daha sonra isə məktəbdə 10 min saat simsiz rabitə vasitələrinin şüalarına məruz qalırlar.

Alimlərin araşdırmalarına görə, 5 yaşlı uşağın bədəninə ətrafdakı elektromaqnit dalğaları böyüklərdən 60% çox hopur. Beynəlxalq Xərçəng Xəstəliyi Araşdırmaları Agentliyi də elan edib ki, mobil rabitə vasitələrində istifadə olunan radiotezliklər insan bədəni üçün xərçəng xəstəliyini əmələ gətirən potensial vasitədir.

Mütəxəssislərin rəyinə görə, Wi-Fi insan sağlamlığı üçün potensial təhlükədir. Buna görə də gecələr yatanda, yaxud gündüzlər istifadə edilməyəndə modemi söndürmək məsləhətdir. Çünki istifadə edilməsə belə, açıq qalan modem evdə elektromaqnit dalğaların yaranmasına səbəb olur. Alimlərin apardığı araşdırmalara görə, Wi-Fi yuxu problemi, ürək döyünməsi, miqren, ümumi zəiflik yaradır. Hətta bu xəstəliklərin hamısının bir arada olmasına da səbəb olur. Elektromaqnit dalğaları insan toxumalarına zərər verir, hüceyrələrdə DNT pozğunluğuna da yol açır.




**NƏ ETMƏLİ?**

**Həkimlər Wi-Fi-dan az zərər çəkmək üçün aşağıdakıları məsləhət görür:**

- **Wi-Fi aparatını insanın daha çox vaxt keçirdiyi yerlərdən (çarpayı, stol, divan) ən azı 1 metr uzağa qoymaq lazımdır;**
- **Böyük həcmdə faylları və videoları yalnız internetin sürəti yaxşı olduğu zaman yükləyin (əks halda, işləmək üçün ələ və güc sərf edən aparat daha çox şüa buraxır);**
- **Modemdən istifadə etmədikdə söndürün, əks halda, o, yenə də şüa yayacaq;**
- **Yatdığınız otaqda modem qoymayın.**

## Uçan avtomobil təqdim edilib



**Tezliklə insanlar işə, istirahətə və qohumlarını ziyarətə uçan avtomobilləri ilə gedə biləcəklər. Uzun zamandan bəri arzu olaraq qalan və üzərində yetərincə təcrübə sınaqlarının keçirildiyi bu ideya yaxın illərdə bir slovak şirkəti tərəfindən reallaşdırılacaq.**
**Vyanada Slovakiyanın "AeroMobil" şirkəti tərəfindən hazırlanmış "Aeromobil 3.0" uçan avtomobilinin dünya premyerası keçirilib. Cəmi 400 kiloqram ağırlığında olan aeromobil dayanmadan 700 kilometrədək məsafəni qət edə bilir. Minik vasitəsi həm avtomobil yollarında hərəkət, həm də havada uçuş üçün nəzərdə tutulub.**

*Aeromobilin ixtiraçısı Yuraj Vaçulik prototipin təqdimatı zamanı bildirib ki, üzərində 30 il əmək sərf olunan yeni nəqliyyat vasitəsi insanların mobilliyinin forma və tərzini tamamilə dəyişməyə xidmət edəcək.*

Bu aeromobilin Hollivud filmlərindəki xəyali uçuş vasitələri ilə heç bir əlaqəsi olmadığını vurğulayan ixtiraçı minik vasitəsinin müştərilər üçün sərfəli və səmərəli olacağını vurğulayıb.

Təqdim olunan aeromobil saatda maksimum 200 kilometr sürətlə uça bilir və bu zaman 15 litr normal benzin sərf edir. Minik vasitəsinin havaya qalxması üçün isə cəmi 200 metrlik açıq sahə kifayət edir.

Yaxın aylarda aeromobil üzərində testlər davam etdiriləcək və onun hava və avtomobil nəqliyyatı üçün lisenziyalaşdırılma aparılacaq. Bütün bu proseslər uğurla başa çatarsa, aeromobilin ilk nümunələri artıq 2016-cı ildən satışa çıxarılacaq.

**Müdriklər deyib ki...**



***«Həmişə ən çətin yolu seçin – orada qarşınıza rəqib çıxmayacaq».***
***Şarl de Qoll (1890-1970)***